## AZƏRBAYCAN VYANADA NÖVBƏTİ DİPLOMATİK UĞURA İMZA ATIB



Ölkəmizin milli maraqlara əsaslan xarici siyasətinin əsas istiqaməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Azərbaycan dövləti xalqımızın xoş məramını əsas tutaraq münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün böyük fəallıq göstərir və daim konstruktiv mövqedən çıxış edir. Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin...

Bax səh. 2

## KƏLBƏCƏR RAYONUNUN İŞĞALINDAN 26 İL ÖTÜR



Kəlbəcər rayonunun təcavüzkar Ermənistan tərəfindən işğal edilməsindən 26 il ötür. Xatırladaq ki, ümumi sahəsi 3054 kv.km olan Kəlbəcər 1930-cu ilin 8 avqustunda inzibati rayon statusu alıb. Qərbdə Ermənistan respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgüsünə daxildir. Kəlbəcər şəhəri Bakıdan təxminən...

Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 02 aprel 2019-cu il, çərşənbə axşamı / № 057 (5432). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Rusiyanın Çeçenistan Respublikası başçısının müşavirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adam Delimxanovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlətimizin başçısına çatdırıb və bildirib ki, Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir. Çeçen xalqının Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırlayıb. O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib.

Prezident İlham Əliyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Ramzan Kadırova çatdırmağı xahiş edib və qeyd edib ki, Onu Ramzan Kadırovla qardaşlıq əlaqələri bağlayır. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarix boyu bu əlaqələr daim möhkəmlənib.

Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırlayaraq Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd edib.

Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulanıb.



## Prezidentin iş günü

Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyədə keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qurucusu olduğu və başçılıq etdiyi Ədalət və İnkişaf Partiyasının Türkiyədə keçirilən bələdiyyə seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib.

Prezident İlham Əliyev bu qələbənin Prezident Rəcəb Tayyib Ərdoğana və onun yürütdüyü siyasətə Türkiyə xalqının dəstəyinin nümayişi olduğunu bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Telefon danışığı zamanı xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olunub.

⋄ ⋄ ⋄

Prezident İlham Əliyev İmişli rayonunun Bəhrəmtəpə-Göbəktala-Məhəmmədli-İmişli-Cəfərli-Oruclu-Ağaməmmədli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

⋄ ⋄ ⋄

Prezident İlham Əliyev Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

## Vyana görüşü substantiv danışıqların aparılması baxımından əhəmiyyətlidir

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub. Prezident İlham Əliyev görüşdən sonra Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində qeyd edib ki, görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yenidən start verilib. Prezident İlham Əliyev danışıqların formatının dəyişilməz qalmasını əsas məqamlardan biri kimi dəyərləndirib. Eyni zamanda, müsahibədə ölkəmiz üçün birinci yerdə...

Bax səh. 3



## ƏLİ ƏHMƏDOV: TARİXİMİZİ VƏ MÜSİBƏTLƏRİMİZİ UNUTMAMALIYIQ

"31 mart ermənі qaniçənlərinin azərbaycanlılara qarşı törətdiyi vəhşilik və soyqırımın anım günüdür. Bu qəbildən olan vəhşilik və qətliamlar erməni millətçiləri tərəfindən dəfələrlə törədilməsinə baxmayaraq, "mədəni" Avropa yüz ildən çoxdur ki...

Bax səh. 3

## AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN İSLAHATLAR UĞURLU NƏTİCƏLƏR VERMƏKDƏDİR

...Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilən dövlət siyasəti nəticəsində Azərbaycan dünyaya yeni və nümunəvi inkişaf modeli təqdim edib. Bu inkişaf modelinin əsas komponentlərindən biri isə təbii ki, konkret hədəflərə və məqsədlərə hesablanan, sosial inkişafı özündə ehtiva edən islahatlardır. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır. 2019-cu ilin əvvəlindən başlayaraq isə respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təbii ki, görülən işlər, aparılan siyasət göz önündədir. Bu gün istər orta aylıq əməkhaqqının yüksəldilməsi, digər sosial müavinətlərin artırılması, qayğıya ehtiyacı olan vətəndaşların problemlərinin həlli istiqamətində atılan addımlar öz real nəticələrini verir və bu, vətəndaşlarımızın sosial rifahının daha da yüksəlməsinə xidmət göstərir...

Bax səh. 6





## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ÇEÇENİSTANA SƏFƏR EDİB

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun dəvəti ilə Qroznı şəhərində səfərdə olub. QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə...

Bax səh. 2

## Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanla yaxşı əməkdaşlığı mövcuddur





Aprelin 1-də Milli Məclis sədrinin müavini Bahar Muradova Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera ilə görüşüb. Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki...

Bax səh. 3

### *Hikmət Hacıyev:* Vyana görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində danışıqlara yeni impuls verdi



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev...

Bax səh. 2

### *Eldar İbrahimov:* Azərbaycan Prezidenti atdığı hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir



"Azərbaycanda son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə...

Bax səh. 3

### YAP Ulu Öndər tərəfindən əsası qoyulan şərəfli yol ilə gedir, uğur da onunla birgə addımlayır



Müasir cəmiyyətdə siyasi partiyaların ictimaiyyətin müxtəlif sosial sinif və maraq dairələrini vahid ideya və fəaliyyət istiqamətində səfərbəredici...

Bax səh. 5

### KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə maliyyə yardımı ayırıb





Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib...

Bax səh. 5

# Azərbaycan Vyanada növbəti diplomatik uğura imza atıb

**Prezident İlham Əliyev:** *Əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır*

*Ölkəmizin milli maraqlara əsaslan xarici siyasətinin əsas istiqaməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Azərbaycan dövləti xalqımızın xoş məramını əsas tutaraq münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün böyük fəallıq göstərir və daim konstruktiv mövqedən çıxış edir. Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub.*



### VYANADA BAŞ TUTAN GÖRÜŞ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI DANIŞIQLAR PROSESİNƏ YENİ BİR İMPULS VERİB

Məlumdur ki, ATƏT-in Minsk qrupunun sədrliyi ilə aparılan danışıqlarda ən maraqlı tərəf qismində məhz Azərbaycan çıxış edir. İlk növbədə ona görə ki, bu münaqişə nəticəsində respublikamız böyük itkilərə məruz qalıb - ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü pozulub, torpaqlarımızın 20 faizi işğal edilib, 1 milyondan artıq soydaşımız doğma yurd-yuvasından didərgin düşüb, çoxlu sayda şəhər və kəndlərimiz, tarixi maddi mədəniyyət abidələrimiz dağıdılıb, işğal altındakı ərazilərdə təbii sərvətlərimiz bu gün də talan olunmaqdadır. Azərbaycan tarixi ədalətin öz yerini tutması - ölkənin ərazi bütövlüyünün təmin olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində, eləcə də digər beynəlxalq platformalarda prinsipial mövqe sərgiləyir və ardıcıl səylər göstərir. Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi müxtəlif səviyyəli görüşlərdə dəfələrlə bəyan edib ki, münaqişə ilə bağlı aparılan danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır, bu danışıqlar substantiv nəticələrə yönəlməlidir. Öz növbəsində Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda prinsipiallıq göstərməsi, o cümlədən də münaqişə ilə bağlı həqiqətlərin fəal şəkildə dünya ictimaiyyətinə çatdırılması artıq öz bəhrəsini verir. Bir vaxtlar erməni mənbələri, ələlxüsus da xaricdəki erməni lobbisi beynəlxalq ictimaiyyətə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin işıqlandırılmasının qarşısını almaq üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırdılar. Lakin indi vəziyyət dəyişib. Azərbaycanın həyata keçirdiyi məqsədyönlü siyasət, regional və qlobal əməkdaşlığa getdikcə daha sanballı töhfələr verməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Bu gün respublikamız bütün dünyada ləyaqətli, özünün milli maraqlarını qətiyyətlə qorumağı bacaran dövlət kimi tanınır. Azərbaycanın qısa müstəqillik tarixində 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, eləcə də qlobal səviyyəli tədbirlərin keçirilməsinin ölkəmizə həvalə edilməsi deyilənləri əyani şəkildə təsdiqləyir.

O cümlədən cari il martın 19-da Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilən görüş Azərbaycan Respublikasının növbəti diplomatik uğurudur. Bu görüşün keçirilməsi bir daha təsdiq etdi ki, danışıqlar yalnız Azərbaycan Respublikası ilə Ermənistan arasında aparılır və danışıqların formatı dəyişməz qalır.

Beləliklə, xeyli müddət keçdikdən sonra Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəsi ilə ilk dəfə görüş keçirildi. Məlumdur ki, bundan əvvəl Ermənistan tərəfi danışıqların formatının dəyişdirilməsi ilə bağlı müxtəlif iddialar irəli sürürdü. Lakin 9 mart tarixində ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış edərək formatın dəyişdirilməsinin qəbuledilməzliyini bildirdilər. Azərbaycan tərəfi də öz növbəsində dəfələrlə formatın dəyişilməzliyini vurğulamışdı. Yeri gəlmişkən, qeyd edək ki, Prezident İlham Əliyev martın 29-da Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində də danışıqlar formatının dəyişməz qalmasının əsas məqam olduğuna xüsusi diqqət çəkib. Azərbaycanın dövlət başçısı müxbirin Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqları barədə sualına cavabında belə deyib: **"...Əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupunun həmsədrlərinin 9 mart tarixli bəyanatını, - siz yəqin ki, onunla tanışsınız, - çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi, təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq. Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar, çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər".**

*"Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur"*

Xatırlatmaq yerinə düşər ki, Vyanada dövlətimizin başçısı və Ermənistanın baş naziri arasında 2 saatdan artıq təkbətək görüş keçirilib. Daha sonra görüşə həmsədrlər, eləcə də 2 ölkənin xarici işlər nazirləri də qatılıblar və toplam 3 saatdan artıq müddətdə danışıqlar aparılıb.

Bu görüş danışıqlar prosesinə yeni bir impuls verib. Nəticə etibarilə də Azərbaycan və Ermənistan xarici işlər nazirləri, eləcə də həmsədrlər tərəfindən birgə "3+2" formatında Bəyanat verilib. Bəyanatda qeyd olunur ki, görüş əsnasında danışıqlar prosesinin əsas məsələləri və substantiv məqamları barədə fikir mübadiləsi aparılıb. Sülh prosesinin irəli aparılması üçün mühitin yaradılması, münaqişənin həlli üçün danışıqlar prosesində konkret və nəticəyönümlü addımlar atılmasının vacibliyi qeyd olunub. Bəyanatda atəşkəslə bağlı məqamlar da qeyd edilib. Həmçinin atəşkəsin davam etdirilməsi, danışıqların intensiv, substantiv əsaslarla bir-birini tamamlaması vacib şərtlərdəndir, bunlar paralel və davamlı aparılmalıdır.

Bu məqamda vurğulamaq yerinə düşər ki, dövlət başçılarının görüşündən əvvəl iki ölkənin xarici işlər nazirləri arasında 4 dəfə görüş keçirilib. Bu da formatın eyni şəkildə davam etdirilməsinin göstəricisidir.

*"Biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq. Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar, çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər"*

### AZƏRBAYCANIN MÖVQEYİ BİRMƏNALIDIR: ÖLKƏMİZİN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİ TƏMİN OLUNMALIDIR

Danışıqlar prosesinin mahiyyətinə gəldikdə isə, Azərbaycan Respublikasının mövqeyi bəllidir və birmənalı xarakter daşıyır. Respublikamızın sərgilədiyi prinsipial mövqenin əsasında Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri dayanır. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır. Prezident İlham Əliyev bu kimi məqamları nəzərə çatdıraraq deyib: **"Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur".**

Ümumiyyətlə, əksər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı respublikamızın təkliflərini qəbul edərək çox önəmli qətnamələr qəbul ediblər. Ayrı-ayrı beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Məsələn, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, GUAM və digər təşkilatların qəbul etdikləri sənədlərdə Azərbaycanın ədalətli mövqeyinə dəstək ifadə olunub.

Avropa İttifaqının 2018-ci ildə Brüsseldə imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədində ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyini, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı prinsipini dəstəkləməsi və ilk dəfə olaraq "Tərəfdaşlıq prioritetləri" sənədində sərhədlərin toxunulmazlığı məsələsinin qurum tərəfindən xüsusi qeyd edilməsi strateji əhəmiyyətə malikdir. Bu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olduqca mühüm məqamdır.

Xəbər verildiyi kimi, ötən ilin aprelində Bakıda keçirilən "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının yekununda Bakı Bəyannaməsi qəbul edilib. Sənəddə beynəlxalq münasibətlər çərçivəsində hər hansı dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq etmə təhdidindən çəkinməyə çağırış yer alıb.

İslam Əməkdaşlıq Təşkilatı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyini, həmçinin 2018-ci il mayın 5-6-da Banqladeşin Dəkkə şəhərində keçirilən təşkilata üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının 45-ci sessiyasında ifadə edib. Sessiyada qəbul edilmiş Dəkkə Bəyanatının 18-ci bəndində İƏT-ə üzv ölkələrdə mövcud olan münaqişə və böhranların BMT və İƏT-in nizamnamələrində təsbit olunmuş beynəlxalq hüquq normaları əsasında həlli, onların doğurduğu dağıdıcı təsirlərin aradan qaldırılması zərurəti qeyd edilib, bu xüsusda Azərbaycanla qəti həmrəylik bir daha ifadə olunub və münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll edilməli olduğu vurğulanıb.

**Mübariz ABDULLAYEV**

## Hikmət Hacıyev: Vyana görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində danışıqlara yeni impuls verdi




Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü ilə bağlı AZƏRTAC-a məxsusi açıqlama verib.

Hikmət Hacıyev bildirib ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında görüş normal və konstruktiv şəraitdə keçdi. Uzun fasilədən sonra Azərbaycan Prezidenti ilə Ermənistan rəhbərliyi arasında ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə görüş təşkil olundu. Bu, bir daha təsdiq edir ki, danışıqların formatı dəyişməz olaraq qalır və danışıqlar prosesi Azərbaycan ilə Ermənistan arasında aparılır. Xatırladaq ki, hələ martın 9-da ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış edərək danışıqlar prosesinin formatının dəyişməzliyi məqamını xüsusi vurğulamışdılar. Bildiyimiz kimi, Ermənistan tərəfindən danışıqlar prosesinin formatının dəyişdirilməsi ilə bağlı iddialar var idi. Azərbaycan da bu məsələyə qəti şəkildə etirazını bildirdi. Vyana görüşü bir daha göstərdi ki, danışıqlar münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında aparılmaqdadır.

Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında iki saatdan artıq təkbətək danışıqlar aparıldı. Sonra isə danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin və hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə davam etdirildi. Ümumilikdə danışıqlar üç saatdan çox müddətdə aparıldı. Bu görüş münaqişənin həlli ilə bağlı danışıqlara yeni impuls verdi. Nəticə etibarilə, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən, yəni, "3+2" formatında birgə bəyanat qəbul olundu. Bu bəyanatda da danışıqlar prosesinin əsas məsələləri, substantiv məqamlar barədə geniş fikir mübadiləsinin aparıldığı qeyd olunur, həmçinin sülh prosesinin irəli aparılması üçün münbit şəraitin yaradılmasının vacibliyi vurğulanır. Eyni zamanda, danışıqlar prosesində konkret və nəticəyönümlü addımların atılmasının vacibliyi kimi məqamlar qeyd edilir. Bəyanatda da qeyd olunduğu kimi, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında aparılmış müzakirələr nəticəsində qərara alınıb ki, bundan sonra xarici işlər nazirləri səviyyəsində görüş keçirilsin və danışıqlar prosesinin irəliyə aparılması məsələləri müzakirə olunsun. Burada, həmçinin atəşkəslə bağlı məsələlər də qeyd olunur. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, atəşkəsin gücləndirilməsi məsələsi substantiv danışıqların aparılması prosesi ilə paralel istiqamətlərdir və bir-birini tamamlamalıdır.

Prezident İlham Əliyevin Avstriyaya işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlərə, ölkələrimiz arasındakı əlaqələrə toxunan şöbə müdiri deyib: **"Dövlətimizin başçısı səfər çərçivəsində Avstriyanın Federal Kansleri, Federal Prezidenti, vitse-kansleri ilə görüşlər keçirdi. Bu görüşlərdə Azərbaycan ilə Avstriya arasında mövcud olan yüksək səviyyəli siyasi əlaqələrdən məmnunluq ifadə olundu, ölkələrimizin iqtisadi-ticarət, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığı ilə bağlı məsələlər müzakirə edildi. Görüşlərdə biznes dairələri arasında işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi mühüm məqam kimi qeyd olundu. Hər iki tərəfin təşəbbüsü ilə Birgə Əməkdaşlıq Şurası da yaradılıb ki, bu da əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından mühüm bir formatdır. Qeyd edək ki, martın 29-da Vyanada bu formatda da görüş keçirildi. Burada da aidiyyəti qurumların rəhbərləri müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi apardılar".**

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycanın regionda yaratdığı nəqliyyat imkanları Avstriya tərəfindən də maraqla qarşılanır. Bu nəqliyyat imkanlarından da istifadə etməklə Avstriya şirkətləri yeni bazarlara çıxış əldə edə bilərlər.

## Qafqaz Müsəlmanları İdarəsinin sədri Çeçenistana səfər edib




Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun dəvəti ilə Qroznı şəhərində səfərdə olub.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, A.Paşazadə Qroznıda Rusiya Qəhrəmanı Əhməd Kadırov adına Regional İctimai Fondun və İslam Mədəniyyəti, Elm və Təhsilə Dəstək Fondunun birgə təşkilatçılığı ilə keçirilən "İslam sülh və mərhəmət carçısıdır" adlı beynəlxalq dini konfransda iştirak edib.

Prezident İlham Əliyevin salamlarını Çeçenistan Respublikasının başçısı Ramzan Kadırova, bütün çeçen xalqına və konfrans iştirakçılarına çatdıran QMİ sədri bildirib ki, dini liderlərin əsas vəzifəsi xalqlarımızın xoşbəxtliyi və rifahı naminə qardaşlıq əlaqələrini və müqəddəs dinimiz İslamı gücləndirməkdir. İnanıram ki, bugünkü konfrans bu müqəddəs əmələ öz töhfəsini verəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qlobal miqyasda multikulturalizm və İslam həmrəyliyi ideyaları uğrunda yorulmadan çalışır. Qonşu dövlətlərlə yaxın münasibətlərin qorunub saxlanılması Azərbaycan Prezidentinin apardığı xarici siyasətin əsas prioritetlərindən biridir. Bu isə Qafqaz xalqlarının daha da yaxınlaşmasına, bölgədəki sülhə və sabitliyə, dostluq əlaqələrini, xüsusən də Rusiya ilə Azərbaycan arasında yaxın münasibətləri gücləndirməyə xidmət edir.

Bütün dünyada demokratiya, insan hüquqları və azadlıqlarının carçısı olduğunu iddia edən ölkələrdə irqi və dini dözümsüzlük, məcburi köç və demoqrafik fəlakətlərin səbəb olduğu hiddətli hərəkətlər var, fərdi qüvvələr bütün insanlığın sülh və sabitliyinə təhlükə yaradır. Yeni Zelandiyanın məscidlərində müsəlmanlara qarşı aşkar terror hücumunun terrorist hərəkət kimi tanınmaması da islamofobiyanın göstəricisidir.

Qafqaz xalqları arasında yaxşı münasibətlər qiymətli tarixi nailiyyətdir. Lakin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi istisna təşkil edir. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü hələ də davam edir, Azərbaycan torpaqlarının iyirmi faizi hələ də bütün beynəlxalq normalara baxmayaraq erməni ekstremistlərinin işğalı altındadır. Azərbaycan xalqının mədəni və dini mirası məhv edilir. Biz Qarabağ münaqişəsinin ədalətli, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq həllini tələb edirik.

Sonra konfrans iştirakçılarının şərəfinə ziyafət verilib. Ziyafət çərçivəsində A.Paşazadə Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov ilə görüşüb. Səmimi şəraitdə keçən görüşdə QMİ sədrini çeçen torpağında hər zaman görməkdən məmnun olduğunu bildirən Çeçenistan lideri Azərbaycan xalqına və dövlətimizin başçısına qardaş salamlarını çatdırmağı A.Paşazadədən xahiş edib.

Qroznıya səfəri çərçivəsində QMİ sədri Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri - Şimali Qafqaz müftiləri ilə də görüşüb, cari məsələlər ətrafında müzakirələr aparılıb.

Daha sonra Beynəlxalq İslam Liqasının baş katibi Məhəmməd bin Əbdül Kərim əl-İsa ilə görüşən A.Paşazadə onunla İslam aləmində cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparıb.

# Əli Əhmədov: Tariximizi və müsibətlərimizi unutmamalıyıq



**“31 mart erməni qaniçənlərinin azərbaycanlılara qarşı törətdiyi vəhşilik və soyqırımın anım günüdür. Bu qəbildən olan vəhşilik və qətliamlar erməni millətçiləri tərəfindən dəfələrlə törədilməsinə baxmayaraq, “mədəni” Avropa yüz ildən çoxdur ki, susmaqda davam edir. Beləcə olaraq, yüz ildən çoxdur ki, “ikili standartlar” yaranıb və bu gün də tətbiq edilir. Qarabağ münaqişəsinin nəticələrinin aradan qaldırılmasına, Azərbaycan torpaqlarının işğaldan azad olmasına, həmvətənlərimizin öz yurd-yuvasına dönməsinə, sadəcə, ədalətin bərpa olunmasına da məhz həmin ikili standartlar mane olur”.** Bu fikirlərin müəllifi Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovdur.

Əli Əhmədov özünün rəsmi “facebook” səhifəsində yayımladığı məqaləsində bildirir: **“Azərbaycan xalqı soyqırımı qurbanlarını daim anaraq tarixi yaddaşını qoruyub saxlayır, ədalətin bərpa olunacağına, soyqırımlarına layiqli siyasi və hüquqi qiymət veriləcəyinə inamını heç zaman itirməyib. Heç bir beynəlxalq təşkilat bunu etməsə də, qüdrətli Azərbaycan dövləti özünün tarix və xalqımız qarşısındakı müqəddəs borcunu yerinə yetirəcək.**

**Tariximizi və müsibətlərimizi unutmamalıyıq. Qələbənin yolu birlikdən, həmrəylikdən, müqəddəs vəzifələr naminə dövlətimizin ətrafında sıx birləşməkdən keçir.**

**Hamımızı birliyə, həmrəyliyə, dövlətimizin qüdrətinin daha da artması və torpaqlarımızın geri qaytarılması naminə mübariz olmağa çağırıram”.**

# Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanla yaxşı əməkdaşlığı mövcuddur




Aprelin 1-də Milli Məclis sədrinin müavini Bahar Muradova Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera ilə görüşüb.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Bahar Muradova Azərbaycanın Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlığa böyük önəm verdiyini deyib. Bildirib ki, uzun illərdir bu təşkilat qarşıda dayanan vəzifələrin həyata keçirilməsi üçün şəffaf fəaliyyət göstərir. Əməkdaşlığımız həm təşkilatın dəyərlərinə, həm də Azərbaycanın maraqlarına uyğun şəkildə davam edir.

Qarşılıqlı görüşlərin intensivliyinin artırılmasının vacibliyini qeyd edən Milli Məclis sədrinin müavini ermənilərin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyev üçün keçirdikləri narahatlığa görə Beynəlxalq Qızıl Xaç Komitəsinə təşəkkürünü bildirib. Qeyd edib ki, biz əsirlikdə yaşayan bütün insanların azad edilməsinin tərəfdarıyıq.

Söhbət zamanı Bahar Muradova Ermənistanla təmas xəttində yaşayan Azərbaycan vətəndaşlarının problemlərinin həlli, ermənilərin girov götürdüyü Elvin İbrahimovun azad edilməsi üçün Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi ilə birgə göstərilən səylərin daha da artırılmasının vacib olduğunu vurğulayıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera qurumun ölkəmizlə yaxşı əməkdaşlıq qurduğunu, parlamentlə də qanunvericilik istiqamətində uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırıb. O, bu faydalı əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini bildirib. Qonaq diqqətə çatdırıb ki, onlar girov götürülmüş şəxslərə mütəmadi olaraq baş çəkir, onların sağlamlıqları ilə maraqlanır və ailələrinə məlumat verirlər.

Söhbət zamanı qarşıda dayanan digər vəzifələr və görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

# Vyana görüşü substantiv danışıqların aparılması baxımından əhəmiyyətlidir

*Ekspertlər danışıqların formatının dəyişilməz qalmasını əsas məqamlardan biri kimi dəyərləndiriblər*



*Elman Məmmədov: Dağlıq Qarabağın separatçı rejimi heç vaxt danışıqlar prosesində tərəf kimi iştirak edə bilməz*



*Elman Nəsirov: Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində danışıqlar formatının qorunub saxlanılması və danışıqların bundan sonra da mövcud format əsasında aparılması haqqında razılaşma əldə olunub*

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub. Prezident İlham Əliyev görüşdən sonra Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində qeyd edib ki, görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yenidən start verilib. Prezident İlham Əliyev danışıqların formatının dəyişilməz qalmasını əsas məqamlardan biri kimi dəyərləndirib. Eyni zamanda, müsahibədə ölkəmiz üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsinin dayandığı qeyd olunub.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin görüşündə ölkəmizin mövqeyi üstün olub. Onun sözlərinə görə, Prezident İlham Əliyev TASS informasiya agentliyinə verdiyi müsahibədə danışıqların formatının saxlanılmasının əhəmiyyətini qeyd edib: **“Uzun illərdir ki, danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Həmsədrlərin də 9 mart tarixli bəyanatında qeyd olunur ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Təbii ki, Azərbaycan tərəfi buna razılıq verməyib. Dağlıq Qarabağın separatçı rejimi heç vaxt danışıqlar prosesində tərəf kimi iştirak edə bilməz”.** Millət vəkili deyib ki, dövlətimizin başçısı sözügedən müsahibədə bizim üçün əsas məsələnin Azərbaycanın beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT-nin 4 qətnaməsi çərçivəsində tanınmış sərhədlərinin bərpası, ərazilərimizin işğaldan azad edilməsinin dayandığını diqqətə çatdırıb. E.Məmmədovun fikrincə, Azərbaycan Prezidenti və Ermənistanın baş nazirinin gəldikləri müəyyən razılaşmalar, danışıqların əvvəlki format üzrə aparılması, danışıqların humanitar aksiyalarla dəstəklənməsi, iki ölkə rəhbərinin birbaşa əlaqə kanallarının təkmilləşdirilməsi baxımından əhəmiyyətli hesab oluna bilər: **“Bütün hallarda, dövlətimizin prinsipial mövqeyi dəyişməz olaraq qalır. Bu mövqe ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş əraziləri azad edilməli, ərazi bütövlüyümüz bərpa olunmalı və məcburi köçkünlər öz yurdlarına qayıtmalıdırlar”.**

**“Həm danışıqlar prosesi, həm də yekunda imzalanmış bu bəyanat bir sıra nəticələr çıxarmağa əsas verir. Birinci ən mühüm nəticə odur ki, Ermənistanın baş naziri Nikol Paşinyan cidd-cəhdlə çalışmasına baxmayaraq, münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin formatının dəyişilməsinə nail ola bilmədi. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində danışıqlar formatının qorunub saxlanılması və danışıqların bundan sonra da mövcud format əsasında aparılması haqqında razılaşma əldə olunub. Paşinyan isə hər zaman istəyirdi ki, məhz format dəyişsin və qondarma rejim danışıqlar tərəfi kimi bu prosesə cəlb olunsun. Yəni, bu, artıq mümkünsüzdür və razılaşma var”.** Bu fikirləri isə Milli Məclisin deputatı Elman Nəsirov söyləyib. Deputat bildirib ki, eyni zamanda, xarici işlər nazirləri arasında yaxın zamanda görüş keçirilməsi ilə bağlı da razılaşma var: **“Burada da məhz Ermənistan və Azərbaycan xarici işlər nazirləri nəzərdə tutulur. Bunlar çox vacib məsələlərdir. Bu danışıqların gedişində əldə edilmiş razılaşmalar sırasında münaqişənin həlli ilə bağlı etimad mühitinin yaradılması, danışıqların davam etdirilməsi üçün əlavə tədbirlərin görülməsi kimi əsas razılaşmalar da var. Yəni, elə bir mühit formalaşsın ki, bu dövlət başçıları səviyyəsində aparılan danışıqların uğurlu olmasına xidmət göstərsin”.**

Elman Nəsirov qeyd edib ki, bu görüşə BMT baş katibi səviyyəsində də qiymət verildi. O da bu görüşün xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı. **“Beləliklə, belə bir qənaətə gəlmək olar ki, münaqişənin tənzimlənməsi ilə bağlı danışıqlar prosesinə yeni bir təkan verildi. Ermənistanın yeni hakimiyyəti ilə Azərbaycan hakimiyyəti arasında artıq doqquz görüş olub. Bunun beşi xarici işlər nazirləri, dördü isə dövlət başçıları səviyyəsində görüşlərdir. Artıq kəmiyyət baxımından intensivlik var, indi əsas bunun keyfiyyət halına keçməsi məsələsidir. Güman olunur ki, bundan sonra xarici işlər nazirlərinin danışıqlarında artıq konkret məsələlər üzrə müzakirələr aparılacaq”** - deyə millət vəkili söyləyib.

**Nardar BAYRAMLI**

# Kəlbəcər rayonunun işğalından 26 il ötür

*Ermənistanın təcavüzü nəticəsində Kəlbəcərdən 53340 nəfər qovulub, 511 nəfər dinc sakin öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb*



Kəlbəcər rayonunun təcavüzkar Ermənistan tərəfindən işğal edilməsindən 26 il ötür. Xatırladaq ki, ümumi sahəsi 3054 kv.km olan Kəlbəcər 1930-cu ilin 8 avqustunda inzibati rayon statusu alıb. Qərbdə Ermənistan respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgüsünə daxildir. Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km qərbdə, Bərdə-İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir.

1993-cü il aprelin 2-də işğal olunan rayon erməni silahlıları tərəfindən tamamilə dağıdıldı, əhalisi isə öz dədə-baba torpaqlarından didərgin salındı. Kəlbəcərin işğalına qədər rayonda 19 ibtidai, 44 orta, 33 natamam orta məktəb, 1 qiyabi orta təhsil məktəbi, 1 peşə məktəbi, 1 texnikum (Tibb Texnikumu), 16 uşaq bağçası, günü uzadılmış 38 qrup, 41 mədəniyyət evi, 44 klub, 1 şəhər mərkəzi xəstəxanası, 1 uşaq xəstəxanası, 9 kənd xəstəxanası, 23 kənd həkim ambulatoriyası, 75 feldşer-mama məntəqəsi və sair fəaliyyət göstərirdi.

1993-cü ilin qiymətlərinə görə, Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53340 nəfər qovulub, 511 dinc sakin öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb.

Sirr deyil ki, hər zaman Azərbaycan xalqına, dövlətinə qarşı düşmən mövqedə dayanan, əsrlərlə tarixi torpaqlarımızı ələ keçirməyə səy göstərən ermənilər sovet imperiyasının rəhbərliyində təmsil olunan havadarlarının köməyi ilə 1988-ci ildə Dağlıq Qarabağda separatçı hərəkata başladılar. İlk olaraq, Ermənistanda yaşayan həmvətənlərimizin öz dədəbaba torpaqlarından qovulması ilə başlanan bu proses ikinci mərhələdə Dağlıq Qarabağın və onun ətrafındakı rayonların işğalı ilə davam etdirildi. Həmin illərdə ermənilərin təxribatlar törətməsinə - yollarda pusqular quraraq dinc əhalini güllləbaran etməsinə, Ağdam-Kəlbəcər elektrik xəttini partladıb rayonu işıqsız qoymasına, Yevlax-Kəlbəcər magistral yolunu bağlamasına baxmayaraq, kəlbəcərlilər torpaqlarını qoruyurdular.

1992-ci ilin may ayında AXC-“Müsavat” cütlüyünün hakimiyyətə gəlməsi ilə ölkədə yaranan xaos, özbaşınalıqlar sərhəd zonalarında, o cümlədən Kəlbəcərdə bütün müdafiə planlarını alt-üst etdi, hərcmərcliyin bünövrəsini qoydu. Ozamankı rəhbərlik Kəlbəcərin müdafiəsini təşkil etmək adı ilə, əslində, rayonun müdafiə sistemini dağıtmağa başladı. Orduda siyasiləşmə, yerli döyüşçülərin, könüllülərin rayonun müdafiəsindən uzaqlaşdırılması əhalinin döyüş əzmini sarsıtdı. Beş il düşmənlə mərdliklə vuruşan, bütün əzabəziyyətə sinə gərən rayon əhalisi çıxılmaz vəziyyətdə qaldı. Bu arada isə Kəlbəcərin işğalına qədər Ağdaban faciəsi baş verdi. Belə ki, Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırıldı, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verildi. 67 nəfər qətlə yetirildi, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırıldı, 2 nəfər itkin düşdü, 12 nəfərə ağır bədən xəsarəti yetirildi. Ağdaban faciəsi tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri sayılır. Bütöv bir kəndin tamamilə yandırılması, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilməsi, insanların doğma yurdundan didərgin salınması, XX əsrin ən qanlı terrorlarından biri - günahsız qocaların, körpə və qadınların güllələnməsi, əsirlərin başının dərisinin soyulması, dırnaqlarının qoparılması, meyitlərin gözünün çıxarılması, qulaqlarının kəsilməsi erməni separatçılarının dünya ictimaiyyətinin gözü qarşısında gerçəkləşdirdiyi etnik təmizləmə siyasətinin davamı idi.

Kəlbəcərin işğalının əsası isə 1993-cü il mart ayının 26-da qoyulub. Ermənilər Ağqaya tərəfdən Keçiliqaya, Zağalar, Çıraqlı kəndlərini yandırıb, Kəlbəcər-Tərtər magistralını bağlamağa cəhd göstəriblər. Basarkeçərlə Kəlbəcər arasında mühüm strateji sahə olan Qaraqaya yüksəkliyinin ələ keçirilməsi üçün düşmən 15-20 gün öncədən hazırlıq işləri aparırmış. Rayon sakinlərinin bildirdiyinə görə, kömək edilməməsi, AXC-“Müsavat” cütlüyünün səriştəsiz rəhbərliyinin xəyanəti, satqınlığı Kəlbəcəri məhv etdi. Beləliklə, işğal nəticəsində Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur oldu.

Qeyd edək ki, Kəlbəcər rayonunun erməni silahlı birləşmələri tərəfindən işğal edilməsinin ardından, yəni 1993-cü ilin aprelin 30-da BMT Təhlükəsizlik Şurası Kəlbəcərin işğalını pisləyən 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bölgədəki hərbi əməliyyatlara son vermək, erməni qoşunlarının Kəlbəcərdən və işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edilirdi. Vurğulamaq lazımdır ki, Kəlbəcərin işğalının ardından qəbul edilən bu Qətnamə BMT TŞ-nın sonradan Azərbaycan torpaqlarının işğalı ilə bağlı qəbul etdiyi qətnamələrin birincisi idi. Daha sonra qurum 1993-cü ilin 29 iyulunda 853, 1993-cü ilin oktyabrın 14-də 874, 1993-cü ilin 12 noyabrında isə 884 saylı qətnamələr də qəbul edib. Təəssüfləndirici haldır ki, işğalçı ölkə hələ də bu qətnamələrdə qeyd edilən müddəaları və beynəlxalq ictimaiyyətin tələblərini yerinə yetirmir.

Bununla belə, bu gün Dağlıq Qarabağın və ətrafındakı rayonların işğaldan azad olunması istiqamətində mütəmadi addımlar atılır. Ölkə Prezidenti İlham Əliyev torpaqlarımızın işğaldan azad olunması istiqamətində qətiyyətli siyasət yürüdür. Eyni zamanda, bu gün qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması, onların yaşayış səviyyəsinin normallaşdırılması istiqamətində də məqsədyönlü fəaliyyət həyata keçirilir. Artıq çadır şəhərcikləri ləğv olunub, yeni qəsəbələr salınır. Bu isə güclü, iqtisadi cəhətdən möhkəm dayaqlara malik Azərbaycan dövlətinin bütün problemlərin öhdəsindən gəlmək iqtidarında olduğunu göstərir. Bütün kəlbəcərlilər yaxın zamanda torpaqlarımızın işğaldan azad olunacağına inanır və öz yurd-yuvalarına qovuşacaqları günü səbirsizliklə gözləyirlər.

**Pərviz SADAYOĞLU**

# Eldar İbrahimov: Azərbaycan Prezidenti atdığı hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir



**“Azərbaycanda son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub. Bu hərtərəfli inkişaf ölkəmizin milli gücünün artmasını təmin edib. Ölkəmizin davamlı inkişafından, iqtisadi potensialın mütəmadi surətdə genişlənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. Bu məqamda qeyd etmək yerinə düşər ki, təkcə 2019-cu ilin əvvəlindən etibarən Azərbaycanın dövlət başçısı əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ölkə vətəndaşlarının gəlir imkanlarının artırılmasına hesablanan bir sıra Fərman və sərəncamlar imzalayıb”.** Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, dövlət başçısının siyasi iradəsi əsasında müəyyənləşdirilən strateji kursa uyğun olaraq ölkəmizdə cari ilin əvvəlindən sosial sahədə çox ciddi addımlar atılıb. Həqiqətən də, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bu, ilk növbədə ölkə başçısının, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Ölkəmizdə Prezident İlham Əliyev tərəfindən ötən il elan edilən və 2019-cu ilin əvvəlindən aktiv şəkildə icrasına başlanılan böyük sosial paketin əhatə dairəsi kifayət qədər genişdir.

**“Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Bunu göstərən bariz nümunələrdən birini cari il fevralın əvvəlində Ağsuda, İsmayıllıda və Şamaxıda baş verən zəlzələlərdən sonra da əyani şəkildə izlədik. Azərbaycanın dövlət başçısı zəlzələ baş verən bölgələrə səfərlər etmək, tikinti, təmir-bərpa işlərini şəxsi nəzarətində saxlamaqla növbəti dəfə verilən sözə əməl etməyin nümunəsini göstərdi. Bunlarla yanaşı, Prezident İlham Əliyev martın 26-da paytaxtın Nizami rayonundakı ticarət mərkəzlərindən birində baş vermiş yanğına da çox həssas münasibət sərgiləyib. Dövlətimizin başçısının tapşırığına əsasən müvafiq qurumların məsul əməkdaşları ilə “Diqlas” ticarət mərkəzində baş vermiş yanğından zərər çəkən sahibkarlar arasında görüş keçirilib və ətraflı müzakirələr aparılıb. Martın 28-də isə Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə müşavirə keçirilib. Müşavirədə Prezident İlham Əliyev qeyd edib: “Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik”.**

**Prezident İlham Əliyev 28 mart 2019-cu il tarixində imzaladığı “Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında” Sərəncamla Nazirlər Kabinetinə Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiya yaratmaqla bağlı tapşırıq verilib. Bununla yanaşı, dövlət başçısı martın 29-da “Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında” Sərəncam imzalayıb. Şübhəsiz ki, Bakı şəhərinin Nizami rayonu ərazisindəki “Diqlas” ticarət mərkəzində baş vermiş yanğından ziyan çəkən sahibkarlara dövlət tərəfindən operativ şəkildə dəstək göstərilməsi ölkəmizdə aparılan sosial siyasətin nəticəsidir. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı, zərər çəkmiş sahibkarlara sahib çıxdı və bir daha göstərdi ki, hər zaman öz vətəndaşının yanındadır. Beləliklə, bütün bunlar cənab İlham Əliyevin hələ 2003-cü ildə “Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam” fikirlərini əyani təsdiq edir. Beləliklə, Azərbaycan Prezidenti atdığı hər addımı ilə ölkə vətəndaşının yanında olduğunu sübut edir”** - deyə E.İbrahimov vurğulayıb.

# Azərbaycanlıların soyqırımının 101-ci ildönümü ilə bağlı Quba Soyqırımı Memorial Kompleksində konfrans keçirilib













Azərbaycanlıların soyqırımının 101-ci ildönümü ilə bağlı martın 31-də Quba Soyqırımı Memorial Kompleksində anım mərasimi və konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutu, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfransda Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, diplomatik korpusun və dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüblər.

Sonra Quba Soyqırımı Memorial Kompleksinin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət olunub. Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, ruhlarına dualar oxunub.

Konfrans iştirakçıları Quba Soyqırımı Memorial Kompleksində 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən foto və kitab sərgisi ilə tanış olublar.

Tədbirin açılışında şagirdlər dahi bəstəkar Üzeyir Hacıbəylinin “Arazbarı” muğamını ifa ediblər.

Mədəniyyət Nazirliyinin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov açılış nitqində bildirib ki, konfransın məqsədi 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törətdiyi soyqırımının ağır nəticələrinin yenidən diqqət mərkəzinə çəkilməsi və bu barədə həqiqətlərin dünyaya çatdırılmasıdır.

**“Yüz bir il əvvəl erməni millətçiləri Bakıda, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakini məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetiriblər. Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrində kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirən düşmənin bu vandalizm əməlləri nəticəsində yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib”** - deyə Z.Sultanov qeyd edib.

Konfransda mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək hər bir xalqın tarixində ağrılı, çətin məqamlar olduğunu bildirib. **“Geri dönüb həmin hadisələrə diqqətlə baxmaq, tarixin dərslərindən ibrət götürmək vacibdir. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan, XXI əsrin memarlıq üslubunda inşa olunmuş möhtəşəm Quba Soyqırımı Memorial Kompleksində bunun üçün gözəl imkan var.**

**Ulu Öndər Heydər Əliyev deyirdi ki, vaxt keçdikcə bu faciə bizim üçün daha ağrılı olur, onu daha dərindən dərk edirik və çətinliklə qəbul edirik. Bu sözlər faciəli tarixin yaddaşlarda həmişə yaşayacağını bildirir. Biz soyqırımı qurbanları qarşısında baş əyirik, onları yad edərək gənc nəslimizə məlumat veririk, düzgün yol göstəririk. Övladlarımız bu tarixi yaddan çıxarmamalıdır. Çünki “böyük Ermənistan” ideyası ilə yaşayan ermənilər heç vaxt dinc durmayacaqlar. Erməni siyasətçiləri bu əməlləri həmişə davam etdirəcək. Buna görə də Azərbaycan xalqı ayıq olmalıdır. Bu çirkin siyasət davam edir. Biz beynəlxalq ictimaiyyəti daim məlumatlandırmalıyıq. Azərbaycan xalqının, burada əsrlərlə yaşayan digər xalqların yaratdıqları nemətləri, adət-ənənələri qorumalıyıq və gənc nəslə ötürməliyik”,** - deyə nazir Ə.Qarayev bildirib.

Mədəniyyət naziri vurğulayıb ki, Azərbaycan gündən-günə inkişaf edir, hər sahədə uğurlar qazanılır. Amma davamlı inkişafla yanaşı, tariximiz daha dərindən öyrənilməli, unudulmamalıdır.

**“Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət nəticəsində iqtisadiyyatımız, ordumuz güclənir, beynəlxalq aləmdə sözümüz eşidilir, Azərbaycana hörmətlə yanaşılır və qəbul edilir. Lakin keçmişdə yaşadığımız bu kimi faciəli tarixi hadisələrə baxaraq, daha güclü və daha ayıq olmalıyıq. Heç vaxt Azərbaycanın bir qarış torpağının, mədəni sərvətinin kiçik bir hissəsinin belə düşmən əlinə düşməsinə imkan verməməliyik. Çünki o mədəni sərvətləri Azərbaycan xalqı yaradıb. Bu gün mədəni sərvətlərimizə qarşı da dayanmadan təcavüz edilir. Ayıq olmalıyıq ki, torpağımızı, mədəni sərvətlərimizi müdafiə edə bilək. Mən bu yolda çalışan tarixçilərimizə, mədəniyyət xadimlərimizə, siyasətçilərimizə, ictimai qurumların nümayəndələrinə təşəkkür edirəm. Biz fəal olmalı, xalqımızın başına gətirilən faciələri daha geniş şəkildə dünya ictimaiyyətinə çatdırmalıyıq. Hamımız əminik ki, Azərbaycanın gəncliyi öz gələcək həyatını ərazi bütövlüyünü bərpa etmiş bir ölkənin vətəndaşları olaraq yaşayacaqlar. Azərbaycan torpaqları işğaldan azad olunacaq, əsl həqiqətlər dünya miqyasında tanınacaq və bu faciənin də dünya miqyasında siyasi və hüquqi qiyməti veriləcək”,** - deyə Əbülfəs Qarayev qeyd edib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev məruzəsində bildirib ki, 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar olunması ermənilərin xalqımıza qarşı həyata keçirdiyi mart soyqırımının dəhşətlərini bir daha ortaya çıxarıb. Əldə olunan maddi sübutlar və sənədlər 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin törətdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirib.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı müvafiq Sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu kompleksin açılışı olub. Soyqırımı kompleksində yalnız Quba qəzasında deyil, Bakı quberniyasının Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımına dair məlumatların əks olunduğu tarixi sənədlər saxlanılır.

Konfransda Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova çıxışında konfransın əhəmiyyətini vurğulayaraq deyib ki, Azərbaycan torpaqlarında sonradan məskunlaşdırılmış nankor və mənfur ermənilər tarixboyu xalqımıza qarşı bir neçə dəfə dəhşətli soyqırımları törədib, öz məkrli məqsədlərinə çatmaq üçün hər cür vəhşiliyə, vandalizmə əl atıblar. **“Biz bu gün tarixə nəzər salarkən bir şeyi bilməliyik ki, hələ ötən əsrin əvvəllərində təcavüzlə mübarizə aparan soydaşlarımız “Difai” təşkilatını yaratmışdı. Amma sovet ideologiyası həmin təşkilatın üzvlərini panislamist adlandıraraq, xalqı üçün fədakar zəhmətinə kölgə salmışdı. Bu kimi tarixi faktlar çoxdur. Biz bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Öz gücümüzü göstərməliyik. Azərbaycan həqiqətlərini dünyaya çatdıran çoxsaylı beynəlxalq tədbirlər keçirilir və bu proses davam etdirilməli, miqyası daha da böyüməlidir”,** - deyə F.Hüseynova söyləyib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışı zamanı artıq bir neçə ildir Quba Soyqırımı Memorial Kompleksində geniş tərkibdə elmi ictimaiyyətin iştirakı ilə konfransların keçirildiyini diqqətə çatdırıb. Bildirilib ki, bu gün dünyanın müxtəlif ölkələrində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı qurbanlarının xatirəsi yad edilir. Bu tədbirlərdə son zamanlar soyqırımı ilə əlaqədar yazılan çoxsaylı tədqiqat əsərləri, üzə çıxarılan materiallar barədə ətraflı məlumat verilir.

**“Quba Soyqırımı Memorial Kompleksi, burada nümayiş etdirilən sənədlər, kompleksin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ermənilərin qaniçənliyini, vəhşiliyini, vadalizmini bəşəriyyətə nümayiş etdirmək üçün əvəzsiz nümunədir. Çox təəssüf ki, sovet hakimiyyəti illərində bu hadisələr xalqımıza birtərəfli qaydada çatdırılıb və ermənilərə təbliğat aparmaq üçün şərait yaradılıb. Həmin dövr üçün ermənilərlə azərbaycanlılar arasındakı münaqişə, XX əsrin əvvəllərində törədilən qırğınlar barədə dahi dramaturq Cəfər Cabbarlının “1905-ci ildə” əsərində yazılanlardan başqa heç bir tutarlı mənbə yox idi. Həmin hadisələrdən bəhs edən sənədlərin hamısı məxfi adı ilə Azərbaycan alimlərindən gizlədilirdi. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanla həmin dəhşətli hadisələrə siyasi qiymət verilib və 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bundan sonra bu tarixi araşdırmaq üçün geniş meydan açıldı. Azərbaycan xalqına qarşı törədilmiş mart soyqırımının 100 illiyi ilə əlaqədar ötən il Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, ölkəmizdə və xaricdə müxtəlif tədbirlər keçirildi”,** - deyə İ.Həbibbəyli bildirib.

Akademik İ.Həbibbəyli qeyd edib ki, azərbaycanlıların kütləvi qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli ağrılarındandır. 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək olub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxışında hər iki ölkənin qarşılaşdığı təhdidlərin, faciələrin hər zaman eyni olduğunu diqqətə çatdırıb. **“Biz iki dövlət, bir millətik. 1918-ci ildə, Birinci Dünya müharibəsinin sonlarında rus orduları Anadoluya irəliləməyə başladı. Ərzurumu, Ərzincanı ələ keçirdilər. Bu zaman Bakıdakı İsmailliyyə binasında yerləşən xeyriyyə cəmiyyəti Anadoludakı qardaşlarına yardım etdi. Oradakı yetimləri, dulları ac buraxmayıb onlara sahib çıxdı. Məncə, İsmailiyyə binasının 1918-ci il martın 31-də yandırılan ilk binalardan biri olması heç də təsadüfi deyil. Türkiyə Cümhuriyyətini, Osmanlı imperiyasını keçmişdə soyqırımı törətməkdə ittiham edənlər özlərinin əməllərini unutmaqdadırlar. 1918-ci ildə Azərbaycanda etdiklərinin eynisini Anadoluda da həyata keçirdilər. Ərzurum, Ərzincan, Van, Qars, Ərdahan və İğdırda hansı qətliamlar törətdilərsə, eynisini Azərbaycan torpaqlarında da törətdilər. Bu gün ermənilər utanmadan türkləri soyqırımı törətməkdə günahlandırırlar. Anadoluda törətdikləri hadisələri də Osmanlı dövlətinə qarşı özlərini müdafiə etmək üçün törətdiklərini iddia edirlər. O zaman onlardan soruşmaq lazımdır ki, bəs niyə Azərbaycanda bu əməlləri törətdin? Axı burada sənə toxunan yox idi. Azərbaycanda o dönəm yaşananlar eyni şəkildə Anadoluda da yaşanıb. Bunun səbəbi də “böyük Ermənistan” xəyalıdır. Ermənilər “böyük Ermənistan” xəyalından bu gün də vaz keçməyiblər. 27 il əvvəl bunu öz gözlərimizlə gördük. Qarabağda, Xocalıda, Azərbaycanın işğal altındakı 7 rayonunda bunun şahidi olduq. Biz bu gün ayıq olmalıyıq. Xüsusən, gənclərimiz keçmişimizi öyrənib, gələcəyimizə sahib çıxmalıdırlar”,** - deyə səfir E.Özoral söyləyib.

AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov dünya tarixində ən vəhşi soyqırımların Azərbaycan xalqına qarşı edildiyini bildirib. **“Bu gün Azərbaycan öndə gedən ölkələrdən biridir. Prezidentimiz müasir inkişafın Azərbaycan modelinin müəllifidir. Fikrimcə, iqtisadi, sosial və digər sahələrdə qazanılan uğurlarla yanaşı, bu modelin ən böyük uğuru tariximizə sahib çıxmağımızdır. Azərbaycançılıq, türkçülük təfəkkürünün qalib gəlməsidir. Erməni quldurlarının Azərbaycana qarşı törətdikləri, dinc insanlara, Azərbaycan xanımlarına, qız-gəlinlərinə, qocalara verdiyi əziyyətlərin analoqu yoxdur, dünya tarixində belə vəhşiliyə təsadüf olunmur. Quba Soyqırımı Memorial Kompleksinin yaradılması tariximizə sahib çıxmaq baxımından olduqca vacib addım oldu. Dünya ermənilərin yalanını çox asan eşidir və ona inanır. Bizim həqiqətləri isə qəbul etməyə meyilli deyil. Ona görə də biz daha çox işləməliyik. Təbliğat sistemimizi daha da mükəmməlləşdirməliyik. Bütün bunlarla bağlı çox qiymətli sənədlər var. Təəssüf doğuran hal isə dünyanın bunu görmək istəməməsidir. BMT-nin Ermənistanın təcavüzkar ölkə olması barədə 4 qətnaməsi var. Məgər dünya bunu görmür?”,** - deyə akademik Y.Mahmudov söyləyib.

Konfransda tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, Milli Məclisin deputatları Vahid Əhmədov, Qənirə Paşayeva və başqaları məruzələrlə çıxış ediblər.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərin törətdikləri bu soyqırımı cinayətinin araşdırılması məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradıb. Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görülüb. Lakin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə bu proses dayandırılıb, baş verənlərin tam araşdırılmasının və hadisələrə müvafiq siyasi-hüquqi qiymətin verilməsinin qarşısı alınıb.

Konfransın sonunda iştirakçılar Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

## Qubadlılılar soyqırımı qurbanlarının xatirəsini anıblar






Qubadlı rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatının birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini, YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev 1918-ci ilin martında baş verən hadisələr haqqında geniş məlumat verərək bildirib ki, həmin hadisələr bolşeviklərin daşnaklarla birlikdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti idi. 1918-ci il mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə ermənilər on minlərlə azərbaycanlını qətlə yetiriblər. A.Haxverdiyev 1918-ci ilin mart ayında erməni daşnaklarının törətdikləri soyqırımına, erməni vəhşiliyinə dair məqamlara bir daha diqqət yönəldərək qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərman xalqımıza qarşı törədilən bu cinayətə verilən ilk siyasi qiymətdir. Qeyd olunub ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Prezident İlham Əliyev tərəfindən ardıcıl və prinsipial siyasət həyata keçirilir.

Tədbirdə Bəhmən Mehdiyev adına Qubadlı şəhər 2 saylı tam orta məktəbin direktoru Yavər Məmmədov və məktəbin tarix müəllimi Ayna İsaqova “Ermənilərin törətdikləri vəhşiliklər” mövzusunda məruzə ilə çıxış ediblər. Çıxış edən Xıdırlı kənd tam orta məktəbinin direktoru Savalan İmanov da bildirib ki, 1918-ci ildə minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə ermənilər tərəfindən qətlə yetirilib.

## Mingəçevirdə 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbir keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Mingəçevir şəhər təşkilatı və Mingəçevir Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbir keçirilib.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov tədbiri giriş sözü ilə açaraq, erməni millətçilərinin zaman-zaman Azərbaycan xalqına qarşı törətdikləri qanlı cinayətləri yada salaraq bildirib ki, “böyük Ermənistan” yaratmaq kimi sərsəm xülya ilə yaşayan daşnaklar təkcə 1918-ci ilin mart qırğınları zamanı on minlərlə azərbaycanlını qətlə yetirib. Azərbaycanın qanlı səhifələrindən olan 31 mart soyqırımı ilə bağlı bu hadisələrin mahiyyətindən danışan İ.İsmayılov qeyd edib ki, bu soyqırımına Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdana kimi heç bir siyasi, hüquqi qiymət verilməyib. **“Bu hadisələrə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra siyasi qiymət verildi. Məhz Ulu Öndər 1998-ci ilin mart ayında 31 mart Azərbaycanlıların soyqırımı haqqında Fərman imzalayıb”,** - deyə İcra Hakimiyyətinin başçısı vurğulayıb.

İ.İsmayılov həmçinin bu gün Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun gördüyü işlər haqqında da ətraflı məlumat verib.

Daha sonra tədbirdə 10 saylı tam orta məktəbin tarix müəllimi Yeganə Bədəlova “1918-ci ilin mart hadisələri ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımıdır”, 3 saylı tam orta məktəbin tarix müəllimi Hilal Qarayev “1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası ermənilərin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin tərkib hissəsidir”, 11 saylı tam orta məktəbin tarix müəllimi Nurəddin Həsənov “Dağlıq Qarabağ və ona bitişik ətraf rayonların işğalı mənfur erməni siyasətinin növbəti mərhələsi kimi”, Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının baş müəllimi “Azərbaycan Respublikası Prezidentinin 26.03.1998-ci il tarixli “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanı tarixən xalqımıza qarşı aparılan soyqırımı siyasətinə verilən siyasi qiymətdir” mövzusunda məruzə ilə çıxış ediblər.

# YAP Ulu Öndər tərəfindən əsası qoyulan şərəfli yol ilə gedir, uğur da onunla birgə addımlayır



**Siyavuş Novruzov,**
**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini**

Müasir cəmiyyətdə siyasi partiyaların ictimaiyyətin müxtəlif sosial sinif və maraq dairələrini vahid ideya və fəaliyyət istiqamətində səfərbəredici, yönləndirici rolu hər kəs tərəfindən bilinən, aydın şəkildə dərk olunan obyektiv gerçəklikdir. Bu baxımdan hər bir siyasi partiyanın özünəməxsus yaranma şərtləri, tarixi şəraiti və bütün bunlardan qaynaqlanan sosial sifarişin müəyyənləşdirdiyi ideoloji hədəfləri, deməli, həm də strateji məqsədlərə yönələn missiyası olur. Bu kriteriyalardan yanaşaraq, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının (YAP) da bir missiya partiyası olduğu aydınlaşır. O missiya müharibə burulğanında çabalayan ölkəni sülhə, ictimai-siyasi sabitliyə qovuşdurmaq, yeni siyasi sistem formalaşdırmaq, onun ideoloji, hüquqi və iqtisadi təməllərini yaradaraq, inkişafın keyfiyyətcə yeni mərhələsinə çıxarmaqdan ibarət idi. Azərbaycançılıq ideologiyasını cəmiyyətə mənimsətmək, "Əsrin müqaviləsi"ni imzalamaq (1994) və müstəqil Azərbaycanın ilk Konstitusiyasını (1995) qəbul etməklə YAP-ın tarixi missiyasının ilk mərhələsi uğurla yerinə yetirilmiş oldu.

1992-ci ildə YAP-ın bünövrəsini qoymaqla, Ulu Öndər nəinki müstəqil dövlətin ideoloji əsaslarını yaratdı, eyni zamanda, sosiuma hələ uzun illər xalqımızın dövlətçilik ənənələrinə uğurla xidmət edəcək azərbaycançılıq kimi bir dəyər qazandırdı. İrqindən, dinindən, millətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşını dövlətimiz və vətənimiz naminə səfərbər edən bu ideologiya, sadəcə, ölkə daxilində deyil, dünyaya səpələnmiş bütün azərbaycanlılar üçün istinad mənbəyinə, xidmət stimuluna çevrildi. Bu uzaqgörən ideoloji prinsip, təsadüfi deyil ki, daha sonra bütün dünyada tolerantlıq və multikulturalizm mərkəzi kimi tanınacaq ölkəmiz üçün əsas ideya leytmotivi oldu. Azərbaycançılıqla yanaşı, müstəqil dövlətçilik, qanunçuluq, varislik və yaradıcı təkamül, konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi, habelə sosial ədalət prinsipləri üzvi vəhdət halında bu gün də demokratik, dünyəvi dövlət qurmaq istiqamətində əsas oriyentirlər kimi çıxış edir.

YAP-ın keçdiyi keşməkeşli tarixi yol, lakin şərəflə arxada qoyduğu proseslər barədə çox yazılıb, kifayət qədər deyilib. Lakin bəzi məqamlar var ki, tarixi həqiqətlər və obyektivlik naminə onların üzərində bir daha durmaq zəruridir. Çünki partiya yarandığı dövrdən dövlətçiliyə deyil, iqtidara qarşı müxalif mövqe tutaraq, ləyaqətli müxalifətçilik etməsinə baxmayaraq, o vaxtkı hakimiyyət tərəfindən çox böyük təzyiqlərə məruz qaldı və bu gün demokrat kimi görünməyə çalışanların əsl siması məhz o zaman üzə çıxdı. Belə ki, 1992-ci ilin oktyabrında "91-lər"in Heydər Əliyevə müraciəti yayıldıqdan sonra AXC-"Müsavat" cütlüyü Naxçıvanda çevriliş etmək fikrinə düşdü. Öz potensiallarını işğal altındakı Dağlıq Qarabağın azad olunmasına sərf etmək yerinə, onlar hətta Naxçıvana quru yolla daxil olmaq üçün Türkiyədəki bəzi dairələr ilə danışıqlar aparırdılar. Bütün bu uğursuz cəhdlərin əks-təsir göstərdiyini və YAP-a olan ümumxalq inamın daha da gücləndiyini görən o zamanın baş naziri Pənah Hüseyn digər siyasi qurumları deyil, məhz YAP-ı ana müxalifət elan etmək məcburiyyətində qaldı.

Partiya hakimiyyətə gəldikdən sonra da müəyyən dairələr ondan öz mənafeyi üçün istifadə etməyə cəhdlər göstərdi. Çünki məlum həqiqətdir ki, bir siyasi qurum hakimiyyətdə olan zaman həm müxtəlif maraq daşıyıcıları, bəzi hallarda isə karyeristlər üçün də cəlbedici olur. Onlar partiyanın imkan və təsir gücündən faydalanmaq, daha sonra isə onu bölmək və ya onun bazası əsasında özünə partiya yaratmaq fikrinə düşdülər. Lalə Şövkət Hacıyeva, Rəsul Quliyev, 2001-ci ildən sonra isə Əli İnsanov və digərləri bu tip uğursuz cəhdlər göstərdilər. Lakin tarix sübut etdi ki, bütün bu cəhdlər əbəsdir və yel qayadan heç nə aparmır.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ölkədə baş verən müsbət irəliləyişlər fonunda YAP-ın bir siyasi qurum kimi qarşısına qoyduğu vəzifələr də günün şərtləri çərçivəsində, heç şübhəsiz, dəyişməli idi. Bu baxımdan partiyanın 1999-cu ildə keçirilən I Qurultayı bir sıra əlamətdar hadisələrlə zəngin oldu. Belə ki, cənab İlham Əliyevin partiyanın Sədr müavini, 2001-ci ildə keçirilmiş II Qurultayda isə Sədrin I müavini seçilməsi təşkilatın sıralarına böyük gənclər ordusunun axınına, onun tərkibinin kəmiyyət və keyfiyyət baxımından xeyli dəyişməsinə səbəb oldu. I Qurultayın gətirdiyi digər struktur islahatı isə İcra Katibliyinin yaradılması ilə əlaqədardır. Partiyanın nizamnaməsinə görə, onun Mərkəzi Aparatına İdarə Heyətinin təsdiq etdiyi iş planına müvafiq şəkildə operativ rəhbərliyi həyata keçirən, yerli təşkilatların fəaliyyətini əlaqələndirən və nəzarət edən, peşəkar, daimi əsaslarla çalışan işçilərdən ibarət aparat formalaşdıran bu qurum qısa müddətdə özünü doğruldaraq, mühüm praktiki əhəmiyyət daşıdığını sübut etdi. Tezliklə partiyada ciddi maliyyə intizamı, dəqiq kargüzarlıq sistemi quruldu və rayon (şəhər) təşkilatlarında da uğurla tətbiq edildi. Ştat cədvəlinə uyğun olaraq, partiyanın rayon (şəhər) şöbələrində daimi əsaslarla işləyən aparatlar formalaşdırıldı. Partiyanın əhatə etmədiyi heç bir ərazi, yaşayış və seçki məntəqəsi qalmadı.

Prezident İlham Əliyevin 2005-ci ildə partiyanın Sədri seçilməsi ilə partiya yeni dövrün çağırışlarına cavab olaraq, adekvat şəkildə öz fəaliyyətini proqramlaşdırdı. Partiyanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm adımlar atıldı. Rayon (şəhər) təşkilatları üçün müasir tələblərə cavab verən yeni inzibati binalar tikilib istifadəyə verildi. Təşkilatların avtomobil, sürətli internet, kompüter və s. ilə təchizatı ən yüksək səviyyəyə qaldırıldı. Bütün bunlar tədbirlərin mütəşəkkilliyində, ardıcıllığında və rəngarəngliyində öz müsbət əksini tapdı. Partiya rəhbərliyinin səyləri nəticəsində Gənclər Birliyinin fəaliyyəti yeni mərhələyə qədəm qoydu, təşkilatın qərargahında gənclər üçün xüsusi ofis təsis edildi. Qadınlar Şurası yenidən təşkil olunaraq, fəaliyyət sahəsi genişləndirildi, humanitar layihələrə qadınların cəlb olunması geniş vüsət aldı. 2018-ci ildə YAP İcra Katibliyi üçün müasir tələblərə cavab verən yeni qərargah tikilib istifadəyə verildi. Bu, işçilərin daha səmərəli fəaliyyəti üçün yeni imkanlar açdı. Lakin partiya üzvlərinin fəaliyyətinə verilən ən yüksək qiymət ölkəmizdə bütün səviyyələrdə - bələdiyyə, parlament, prezident seçkilərində əldə olunan parlaq qələbələr olmuşdur.

Bu gün YAP-ın 735 minə yaxın üzvü var və partiyanın yuxarıda sadalanan uğurlarının təməlində hər bir üzvün gərgin əməyi, əzmkarlığı dayanır. Böyük intellektual potensiala malik partiyamızda üzvlərin 322 min nəfərə yaxını ali təhsilli, 3026 nəfəri fəlsəfə doktoru, 1488 nəfəri elmlər doktoru, onların da bir hissəsi akademikdir. Milli Məclis üzvlərinin 67 nəfərini YAP-ın təmsilçiləri təşkil edir və onlar ölkəmizdə dünya standartlarına uyğun, müasir hüquq dövlətinin tələblərinə cavab verən qanunvericilik prosesində fəal iştirak edirlər. Habelə, ölkədə seçilmiş bələdiyyə üzvlərinin mühüm əksəriyyəti, yəni 10 mindən artıq vətəndaşımız məhz YAP-ın üzvüdür. Həmçinin respublikamızda fəaliyyət göstərən, rayon (şəhər) icra hakimiyyəti başçılarının 83-ü YAP-ın təmsilçisidir.

YAP-ın hər bir üzvü möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar prosesində fəal şəkildə iştirak edir, eyni zamanda, bilik və bacarıqları ilə ölkəmizin inkişafına öz töhfələrini verir. Quruculuq, abadlıq, yaşıllaşdırma və bir sıra humanitar aksiyalarda YAP-ın müvafiq strukturlarının hazırladığı layihələr əhəmiyyətli yer tutur. Hər bir YAP üzvü harada çalışmasından və hansı peşənin sahibi olmasından asılı olmayaraq, partiyamızın Sədri cənab İlham Əliyevin çoxşaxəli fəaliyyətinin aktiv təbliğatçısı və təşviqatçısıdır. Dövlət müstəqilliyimizin qorunması və ərazi bütövlüyümüzün təmin olunması YAP-ın vətənpərvərlik təbliğatının ən önəmli tərkib hissəsidir. Bu istiqamətdə həyata keçirilən tədbirlərdə partiya üzvlərinin cənab Prezidentə ünvanladığı bütün müraciətlərin əsasında bir fikir yer alır ki, hər bir YAP üzvü cənab Ali Baş Komandanın sadiq əsgəridir və hər an Vətən torpaqlarının müdafiəsinə hazırdır.

Ötən dövr ərzində partiyanın beynəlxalq əlaqələri xeyli genişlənmiş, Avropa Xalqları Partiyası (EPP) və Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı (İCAPP) ilə əməkdaşlıq hazırda da yüksələn xətlə davam edir və təsadüfi deyil ki, onların bir sıra tədbirləri ölkəmizdə keçirilmişdir. Avrasiya məkanında keçirilən bir sıra mötəbər forumlarda YAP-ın nümayəndələri təmsil olunaraq, Azərbaycan həqiqətlərini, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini dünyaya çatdırmışlar.

Bu sahədə, xüsusilə Azərbaycan Respublikasının I vitse-prezidenti, YAP Sədrinin müavini Mehriban xanım Əliyevanın geniş və hərtərəfli fəaliyyəti xüsusi olaraq qeyd olunmalıdır. Məhz onun rəhbərliyi ilə həyata keçirilən beynəlxalq humanitar layihələr Azərbaycanın dünyadakı imicinin formalaşdırılması baxımından misilsiz əhəmiyyətə malikdir. Habelə, sivil dünya birliyinə inteqrasiya, xalqın rihafı naminə elm, təhsil, mədəniyyət, səhiyyə sahəsində Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən aksiyalar, eyni zamanda, Azərbaycanda dövlətin sosial siyasətinin mühüm və ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhid ailələrinə edilən yardımlar, milli-mənəvi dəyərlərin qorunması istiqamətində atılan addımlar bu genişmiqyaslı fəaliyyətin yalnız bir hissəsidir.

Göründüyü kimi, rəhbər-ideya-təşkilat triadasına söykənən, qısa müddətdə Qafqazın ən qüdrətli siyasi qurumu kimi formalaşan YAP nəzəriyyə və praktikanın uğurlu konsolidasiyasına nail olaraq, daxili və xarici düşmənlər üçün keçilməz səddə çevrilmişdir.

Lakin hazırda, təəssüflər olsun ki, on illərdir partiya fəaliyyəti ilə bağlılığı, demək olar ki, kəsilmiş bəzi şəxslərin onun çoxminlik üzvləri haqqında xoşagəlməz fikirlər səsləndirməsi, hətta təhqirə yol verməsi qətiyyən yolverilməz hadisədir və hər bir kəsin ləyaqətinə toxunur. Kimin nə vaxtsa hansısa xidməti göstərməsi bu gün ona partiyanın yüz minlərlə üzvünü təhqir etmək imtiyazı vermir. Həm də maraqlısı odur ki, son dövrlər bəzi şəxslər özlərini cəmiyyətə gah "91-lər"in nümayəndəsi, gah da "partiyanın qurucularından" biri kimi təqdim edirlər. Bu kimilərinə bir daha xatırlatmaq lazımdır - YAP-ın bir tək banisi və yeganə qurucusu var və bu şəxs Ümummilli Lider Heydər Əliyevdir. Qalanları isə Onun şəxsiyyəti və ideyaları işığına toplaşanlardır. Bəzilərinin bu müqəddəs yolu yarımçıq qoymasına, bəzilərinin öz şəxsi ambisiyalarına qurban gedib yarı yolda qalmasına rəğmən, bu yol əbədidir, daimidir və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin simasında layiqli rəhbərə malikdir. Bu partiya Vətəni, Milləti sevən, onun tərəqqisinə çalışan insanların birləşdiyi siyasi təşkilatdır və aydın məsələdir ki, kimsənin şəxsi mənafeyinə xidmət etmir.

Yekunda qürur hissi ilə qeyd etmək istərdim ki, kimlərinsə qərəzindən, subyektiv rəylərindən asılı olmayaraq, YAP Ulu Öndər tərəfindən əsası qoyulan şərəfli yol ilə gedir və uğur da onunla birgə addımlayır. Gələcək isə bu yolda inamla, səmimiyyətlə, sədaqətlə və cəsarətlə addımlayanlarındır.

# KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə maliyyə yardımı ayırıb



Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib. KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açaraq gündəlikdəki məsələ barədə məlumat verib.

Bildirilib ki, gündəliyə daxil olan ilk məsələ Fondun 2019-cu ilin II rübü üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim olunmuş sənədlərin müzakirəsi və təsdiqidir. Məsələ ilə bağlı məlumat verən icraçı direktor Vüqar Səfərli deyib ki, 2019-cu ilin ikinci rübü üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqə fevralın 1-dən martın 28-dək davam edib. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən 19 istiqamət üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 25 qəzetdən sənəd təqdim edilib.

Qeyd edilib ki, 2019-cu ilin ilk rübündə maliyyə yardımı ayrılmış əksər qəzetlərin fevral-mart aylarında tiraj və yayımla bağlı Fonda təqdim etdikləri hesabatlar onların ikinci rüb üçün elan edilmiş yeni maliyyələşmə şərtlərinə hazır olmadıqlarını göstərib. Fond bu səbəbdən də güzəştli və humanist yanaşma nümayiş etdirərək fevral-mart aylarında tiraj və yayımla bağlı təqdim olunmuş sənədlər əsasında ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsini və maliyyələşdirilməsini təklif edir.

İcraçı direktor bildirib ki, birinci kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 3000 nüsxədən, satış və abunəsinin cəmi 2000 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 20000 manat maliyyə yardımının ayrılması təklif olunur.

İkinci kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan, günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 10000 manat maliyyə vəsaitinin ayrılması məqsədəuyğun sayılır.

Üçüncü kateqoriyaya isə son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 24-dən (A3, B2 formatda) az olmayan həftəlik ictimai-siyasi qəzetlərin daxil edilməsi və onlara aylıq 5000 manat maliyyə vəsaitinin ayrılması təklif olunur.

Vüqar Səfərli vurğulayıb ki, yeni şərtlərə əsasən qəzetlərə ayrılacaq maliyyə yardımının əsaslı şəkildə artırılması nəzərdə tutulur. O, həmçinin bildirib ki, 2019-cu ilin II rübündə yeni şərtlərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması nəzərdə tutulur.

Sonra Müşahidə Şurasının üzvləri yayım və tirajla bağlı təqdim edilmiş sənədlər əsasında geniş müzakirələr aparıblar. Müzakirələr nəticəsində ictimai-siyasi qəzetlərin təklif olunan 3 kateqoriya üzrə bölgüsü həyata keçirilib.

Müşahidə Şurasının üzvləri bu qərarı qəzetlərin mənafeyinə tamamilə cavab verən güzəştli, humanist və optimal yanaşma kimi dəyərləndiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov çıxış edərək vurğulayıblar ki, yeni təkliflər əsasında ayrılan maliyyə vəsaitinin məbləğinin əsaslı şəkildə artımı qəzetlərdə çalışan çoxsaylı jurnalistlərin də mənafeyinə cavab verən məqsədəmüvafiq addımdır.

Müzakirələrin sonunda 2019-cu ilin II rübündə 25 gündəlik, günaşırı və həftəlik ictimai-siyasi qəzetin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edilib.

# "Nuhçıxan" İnformasiya Agentliyinin 1 illiyi ilə bağlı tədbir keçirilib



Aprelin 1-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Nuhçıxan" İnformasiya Agentliyinin yaradılmasının 1 illiyi münasibətilə tədbir keçirilib. NUHÇIXAN xəbər verir ki, tədbirin aparıcıları qeyd ediblər ki, zəngin tarixə malik olan Naxçıvan teleradiosu yeni inkişaf mərhələsinə qədəm qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən televiziya və radionun fəaliyyətinə yüksək səviyyəli şərait yaradılıb, onun cəmiyyət həyatına təsirinin daha da artmasına nail olmaq baxımından muxtar respublikada ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Kütləvi informasiya vasitələrinin inkişafına göstərilən qayğıdan yaranan və yaradılmasının 1 illiyini qeyd edən "Nuhçıxan" İnformasiya Agentliyi də bu tarixi prosesin davamıdır. "Nuhçıxan" Naxçıvan haqqında ilkin informasiyanı 3 dildə, veb və video xəbər olaraq öz izləyicilərinə çatdırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun adından ötən 1 ildəki uğurlu fəaliyyətinə görə "Nuhçıxan" İnformasiya Agentliyinin kollektivinə təşəkkür edib. Ülvi Hüseynli qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən yaradılmış "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətə başlaması ölkəmizin ictimai-mədəni həyatında əlamətdar hadisə idi.

Bildirilib ki, Ümummilli Liderimiz Heydər Əliyevin söz, fikir və mətbuat azadlığının təmin olunması sahəsində əsasını qoyduğu dövlət siyasəti bu gün ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün geniş imkanlar yaradılır. Mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli qayğının nəticəsidir ki, bu sahədə böyük keyfiyyət dəyişiklikləri yaranmış, informasiya-məlumatlandırma işi günün tələbləri səviyyəsində qurulmuş, muxtar respublikanın kütləvi informasiya vasitələri yeni inkişaf müstəvisinə çıxmışdır. Ülvi Hüseynli deyib ki, "Nuhçıxan" İnformasiya Agentliyinin yaradılması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların geniş oxucu, tamaşaçı və dinləyici auditoriyasına çatdırılmasına imkan verib.

"Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Səməd Canbaxşiyev tədbirdə çıxış edərək bildirib ki, "Nuhçıxan" İnformasiya Agentliyinin ötən bir il ərzində geniş oxucu kütləsinə təqdim etdiyi dəqiq və operativ xəbərlər, məlumatlar müasir jurnalistikanın tələblərinə uyğun şəkildə işlənərək çatdırılıb. İnternet saytının imkanlarından istifadə edilərək materiallar yazı, foto və video formatında hazırlandığı üçün oxucu və izləyicilərin diqqətini çəkməklə yanaşı, onlar üçün rahat və əlçatan olub.

Əməkdar jurnalist Qahirə Hüseynova tədbirdə çıxış edərək deyib ki, "Nuhçıxan" Naxçıvan Muxtar Respublikasının mətbuat tarixində informasiya blokadasının yarılmasında yeni bir tarixi mərhələnin başlanğıcını qoyub. Muxtar respublika ziyalıları, peşəkar və gənc jurnalistlər üçün əsl mənada yaradıcılıq tribunasına çevrilən "Nuhçıxan" informasiya agentliyinin saytında onların elmi, publisistik yazılarına geniş yer verilir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli deyib ki, müstəqillik illərində Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlarla təchiz edilib.

Çıxışlardan sonra Naxçıvan teleradiosunun və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətindən bəhs edən videoçarx təqdim olunub.

Sonra işlərində fərqlənən əməkdaşlara, eləcə də agentliklə fəal əməkdaşlıq edən dövlət orqanlarının mətbuat xidmətlərinin rəhbərlərinə və informasiyaların sosial şəbəkələrdə yayılmasında fəallıq göstərən bir qrup gəncə fəxri fərman və hədiyyələr təqdim olunub.

Tədbirin bədii hissəsində televiziyanın "Nuhçıxan" xalq çalğı alətləri ansamblı konsert proqramı ilə çıxış edib.

# Pərvin Kərimzadə: Dövlətimizin sosial siyasəti ardıcıl və sistemlidir



**“Hər zaman xalqın xoş və sevincli günlərində vətəndaşların sevincinə şərik olan dövlətimizin başçısı cənab İlham Əliyev çətin günlərdə də onların yanında olur. Heç kim xətadan-bəladan sığortalanmayıb. Elə qəzalar, təbii fəlakətlər var ki, insan onun qarşısında aciz qalır. Lakin müstəqil Azərbaycan dövlətinin vətəndaşlarının ölkə Prezidenti İlham Əliyevin humanist siyasətinə olan etibarı, inamı daim onlara güc və qüvvət verir. Çətinə, dara düşən hər bir azərbaycanlı inanır ki, onun köməyinə, dəstəyinə ilk inandığı, etibar etdiyi Prezidenti gələcək və dəstək olacaq”.** Bu fikirləri yap.org.az saytına Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib.

P.Kərimzadə bildirib ki, Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Prezidentinin Sədrliyi ilə keçirilən müşavirədə ölkə başçısının zərər çəkmiş sahibkarlara yardım ediləcəyini bəyan etməsi bir daha təsdiq etdi ki, dövlətimiz həmişə əsas tutduğu humanizm prinsiplərinə sadiqdir və hər zaman xalqın yanındadır.

**“Cənab Prezidentin operativ olaraq hadisəyə öz münasibətini bildirməsi, sahibkarlara dəyən zərərin araşdırılması ilə bağlı lazımi tapşırıqlar verməsi ölkəmizin sosial dövlət olmasının mahiyyətinin vətəndaşlara daim qayğı göstərmək olduğundan xəbər verir. Azərbaycan Prezidenti ölkədə sığorta sistemində olan nöqsanlara da diqqət yetirib. Adətən, inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Sığorta sistemində olan çatışmazlıqlara baxmayaraq, Azərbaycan vətəndaşının sosial rifahının yüksəldilməsinə yönəldilən humanist siyasət hər zaman olduğu kimi, bu yanğın hadisəsindən zərər çəkmiş sahibkarlara da dəstək oldu. Bu da təkcə sahibkarların deyil, cəmiyyətin, ölkə vətəndaşlarında ruh yüksəkliyi, minnətdarlıq hissi yaratdı. “Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik” - ölkə rəhbərinin müşavirədə səsləndirdiyi bu fikirlər Azərbaycan vətəndaşını bir daha əmin etdi ki, xoş gündə də, dar gündə də dövlət başçısının diqqət və qayğısından kənarda qalmayacaq. Cənab Prezidentin 16 il əvvəl söylədiyi “Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir, bu, mənim borcumdur”- sözləri bu gün tam təsdiqini tapıb. Cənab İlham Əliyev ölkə rəhbəri kimi fəaliyyətə başladığı dövrdən xalqın marağını hər şeydən üstün tutan, xoşniyyətli əməlləri, imzaladığı Fərman və sərəncamları, praqmatik qərarları ilə hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyib. Eyni zamanda, “Diqlas” ticarət mərkəzində baş vermiş yanğından zərər çəkmiş sahibkarlara dövlət dəstəyi bir daha təsdiqlədi ki, dövlətin sosial siyasəti ardıcıl və sistemlidir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifədir”,** - deyə P.Kərimzadə vurğulayıb.

# Azərbaycanda həyata keçirilən islahatlar uğurlu nəticələr verməkdədir



***Milli Məclisin deputatı Azər Badamov www.yap.org.az saytına müsahibə verib:***

**- Azər müəllim, 2019-cu ilin əvvəlindən başlayaraq ölkəmizdə geniş islahatlar həyata keçirilir və vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Ümumiyyətlə, aparılan işlər, atılan addımlarla bağlı fikirlərinizi bilmək maraqlı olardı...**

- Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilən dövlət siyasəti nəticəsində Azərbaycan dünyaya yeni və nümunəvi inkişaf modeli təqdim edir. Bu inkişaf modelinin əsas komponentlərindən biri isə təbii ki, konkret hədəflərə və məqsədlərə hesablanan, sosial inkişafı özündə ehtiva edən islahatlardır. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır. 2019-cu ilin əvvəlindən başlayaraq isə respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təbii ki, görülən işlər, aparılan siyasət göz önündədir. Bu gün istər orta aylıq əməkhaqqının yüksəldilməsi, digər sosial müavinətlərin artırılması, qayğıya ehtiyacı olan vətəndaşların problemlərinin həlli istiqamətində atılan addımlar öz real nəticələrini verir və bu, vətəndaşlarımızın sosial rifahının daha da yüksəlməsinə xidmət göstərir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. Və bu islahatlar uğurlu nəticələr verməkdədir.

**- Yeni islahatlar ölkə iqtisadiyyatının daha yüksək səviyyədə inkişaf etməsinə hansı töhfələri verəcək?**

- Azərbaycanda illərdir sistemli şəkildə görülən işlər və aparılan siyasət milli iqtisadiyyatımızın yüksəlişini təmin edib. Xatırlayırıq ki, hələ qlobal maliyyə böhranı dövründə Azərbaycan iqtisadiyyatı öz sabitliyi ilə seçildi və həmin prosesdən demək olar ki, zərər çəkməyən azsaylı dövlətlərdən olduq. Bunun arxasında isə illərdir düzgün istiqamətlənən dövlət siyasəti dayanırdı. Bu gün respublikamız rəqabət qabiliyyəti kifayət qədər yüksək olan iqtisadiyyata malikdir və heç bir kənar maliyyə mənbəyindən asılı deyil. Azərbaycan hətta ölkə xaricində də nəhəng investisiya layihələri həyata keçirir. Bütövlükdə, son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox genişlənib. O cümlədən cari ilin ilk iki ayında ölkə üzrə ümumi daxili məhsul 3 faiz artıb. Qeyd edək ki, bu, son illərin ən yüksək göstəricisidir. Daha böyük artım isə 15,5 faiz olmaqla qeyri-neft sənayesində qeydə alınıb ki, bu, dünya rekordudur. Sevindirici haldır ki, artıq ildənilə ölkəmizin gəlirlərindən qeyri-neft sektorunun payı artmaqdadır.

Təbii ki, burada regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının rolunu xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin bu il yanvarın 29-da imzaladığı “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərmanda da qeyd edildiyi kimi, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

2019-cu ilin əvvəlindən intensiv şəkildə reallaşdırılan geniş sosial paket çərçivəsində problemli kreditlərlə bağlı mühüm qərar verilməsi də xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyevin 2019-cu il fevralın 28-də imzaladığı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir. Dövlət başçısının imzaladığı Fərmana əsasən, devalvasiya nəticəsində insanlara dəyən ziyan dövlət tərəfindən ödənilir. Bu, bir daha dövlətin öz vətəndaşına göstərdiyi qayğının göstəricisidir.

**- Azər müəllim, son günlərdə əsas müzakirə mövzularından biri “Diqlas” ticarət mərkəzində baş vermiş yanğında zərər çəkmiş insanlara dövlətimizin qayğısı, Azərbaycan Prezidentinin həmin insanlara dövlət yardımının göstərilməsi ilə bağlı müvafiq tapşırığıdır. Bu barədə nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyevin göstərişi ilə “Diqlas” ticarət mərkəzində baş verən yanğından zərər çəkən vətəndaşlara dövlət yardımının göstərilməsi ilə bağlı tapşırığın verilməsini, bununla əlaqədar xüsusi müşavirənin keçirilməsini və müvafiq Sərəncamın imzalanmasını çox yüksək dəyərləndirirəm. Cənab Prezident İlham Əliyev bir daha ümidsiz insanlara ümid verdi. Ölkə başçısı keçirdiyi müşavirədə tezliklə yanğının səbəblərinin araşdırılmasına, sahibkarlara dəymiş ziyanın müəyyənləşdirilməsinə və müəyyən olunacaq maliyyənin ödənilməsinə dövlət büdcəsindən vəsait ayrılmasına tapşırıq verib. Bu, bir daha cənab Prezidentin siyasətinin təməlində vətəndaşın dayandığını göstərir. Azərbaycan vətəndaşı əmindir ki, ən ağır durumunda belə dövləti, Prezidenti onun arxasındadır. Təbii ki, bu da ölkəmizdə yaradılan dövlət-xalq birliyinin təcəssümüdür. Cənab Prezidentimiz hər zaman vurğulayır ki, Azərbaycan sosial dövlətdir. Bunun anlamı isə ilk növbədə vətəndaşlarımızın sosial problemlərinin təmin edilməsini özündə ehtiva edir. Bu gün aparılan islahatlar, atılan addımlar, qəbul edilən Dövlət proqramları da bu dediklərimizin əyani sübutudur.

# Gürcüstan səfiri: UNEC-in əməkdaşlıq istiqamətində böyük potensialı var

Gürcüstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub.



UNEC-in rektoru, professor Ədalət Muradovla görüşən diplomat dost və qonşu ölkələr olan Azərbaycanla Gürcüstan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini diqqətə çatdıraraq, hər iki ölkə arasında reallaşdırılan irimiqyaslı layihələrdən söz açıb. Azərbaycan universitetləri arasında ilk səfərini UNEC-ə etdiyini bildirən səfir, Gürcüstan ali təhsil müəssisələri ilə əməkdaşlıq perspektivlərindən danışıb. Diplomat UNEC-in bu istiqamətdə böyük potensialı olduğunu diqqətə çatdırıb.

Rektor Ədalət Muradov səfirə Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olan UNEC-də iqtisadyönümlü ixtisaslarla yanaşı, texniki və texnoloji ixtisasların da tədris olunduğu barədə məlumat verən rektor, universitetin İngiltərə, Fransa, İsveçrə və Litvanın qabaqcıl ali təhsil müəssisələri ilə bakalavr və magistr pilləsi üzrə ikili diplom proqramlarından bəhs edib. UNEC-in Türkiyə və Rusiyanın ali təhsil müəssisələri ilə geniş əməkdaşlıq etdiyini bidirən Ə.Muradov, bu istiqamətdə Gürcüstanla əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Rektor UNEC-in Zaqatala filialından da söz açıb. Filialın Gürcüstana yaxın ərazidə fəaliyyət göstərdiyinə toxunan rektor, Zaqatala filialında gürcü dilində də tədrisin mümkünlüyünü qeyd edib. UNEC-in Rusiya ərazisində lisenziya əsasında filialının fəaliyyət göstərdiyini deyən Ə.Muradov, Gürcüstan Respublikasında da filialın açılmasında maraqlı olduğunu vurğulayıb.

Görüşdə UNEC ilə Gürcüstanın ali təhsil müəssisələri arasında tələbə-müəllim mübadiləsi, birgə tədqiqatların aparılması, dərslik və kitabların çap etdirilməsi, konfrans və seminarların keçirilməsi istiqamətində müzakirələr aparılıb. Gürcüstanda təhsil alan tələbələrin UNEC-in ikili diplom proqramlarına qoşulmaq imkanları, universitetin Quba Tədris, İdman və İstirahət Kompleksində yay və qış məktəblərinin təşkili ətrafında fikir mübadiləsi aparılıb.

# Bəhruz Quliyev: Problemlərə həssas yanaşması Azərbaycan Prezidentinin vətəndaşlara verdiyi dəyərin göstəricisidir

Azərbaycanda sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən daim qayğı göstərilir. Bakının Nizami rayonundakı ticarət mərkəzində baş verən yanğın hadisəsindən sonra Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə bir daha göstərdi ki, dövlətimizin başçısı hər zaman sahibkarların yanındadır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında “Səs” media qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.



Ekspert bildirib ki, yanan ticarət mərkəzində çalışan sahibkarlar əslində əmlaklarını sığorta etməli və haqlarını da onlardan tələb etməli idilər. Azərbaycan dövləti sahibkarın fəaliyyəti üçün geniş imkanlar, səmərəli mühit yaradıb, onların sərbəst fəaliyyətinin təşkili ilə əlaqədar müxtəlif güzəştlər edilir. Prezidentin bu məsələni dərhal nəzarətə götürməsi və həmin sahibkarlara dövlət yardımı ilə bağlı Sərəncam imzalaması onun hər addımı ilə vətəndaşın yanında olduğunu bir daha nümayiş etdirdi.

B.Quliyev qeyd edib ki, Azərbaycan Prezidentinin təkcə yanğın hadisəsi zamanı deyil, ümumiyyətlə, ölkədə cərəyan edən bütün proseslərə çevik reaksiyası, problemlərə həssas yanaşması ölkə vətəndaşlarına verdiyi dəyərin göstəricisidir. Dünyanın heç bir ölkəsində dövlət təbii fəlakətlər və texnogen qəzalar zamanı vətəndaşların mülkiyyətinə dəyən ziyanın ödənilməsini öz üzərinə götürmür. Azərbaycan Prezidenti tərəfindən bu istiqamətdə atılan addımlar liderin şəxsi iradəsinin, eyni zamanda, aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşı amilinin dayandığının təzahürüdür. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı. Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut etdi.

# Vüqar Rəhimzadə: Vyana görüşü bir daha göstərdi ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılır

Bu gün sürətlə Avropaya inteqrasiya edən Azərbaycan qitə dövlətləri ilə qarşılıqlı faydalı münasibətlər qurur. Müxtəlif sahələri əhatə edən bu münasibətlər qarşılıqlı səfərlər, keçirilən görüşlər, imzalanan sənədlərlə daha da möhkəmlənir və genişlənir. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Avstriyaya işgüzar səfərini yüksək qiymətləndirmək lazımdır. Səfər zamanı möhtərəm Prezidentimiz Avstriya Federal Kansleri, Avstriya Prezidenti və vitse-kansleri ilə görüşlər keçirib, 2 ölkənin təşəbbüsü ilə Birgə Əməkdaşlıq Şurası adlı yeni əməkdaşlıq formatı yaradılıb. Hesab edirəm ki, bu səfər Azərbaycan-Avstriya münasibətlərinin gələcək inkişafı baxımından xüsusi önəm kəsb edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə bildirib ki, hazırda ölkəmizlə Avstriya arasındakı siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir. Azərbaycan Avstriya ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Avstriya şirkətləri ölkəmizdə öz fəaliyyətlərini uğurla davam etdirirlər. Bu da onu deməyə əsas verir ki, Azərbaycan Cənubi Qafqaz regionunda Avstriyanın əsas iqtisadi tərəfdaşıdır. Bütün bu məqamlar möhtərəm Prezidentimizin Avstriyada keçirdiyi görüşlərdə əsas müzakirə mövzuları olub. Avstriya rəhbərliyi də öz növbəsində ölkəsinin Azərbaycanla əməkdaşlıqda və mövcud əlaqələrinin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

“İki sahil” qəzetinin baş redaktoru qeyd edib ki, Prezident İlham Əliyevin Avstriyaya işgüzar səfəri zamanı əsas məqamlardan biri də Ermənistan baş naziri ilə keçirilən görüş idi. O deyib: **“Belə ki, Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında növbəti görüş Vyanada baş tutdu. Bu görüş bir daha göstərdi ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılır və format dəyişməz olaraq qalır. Qeyd edək ki, bir müddət əvvəl Ermənistan danışıqların formatının dəyişdirilməsi ilə əlaqədar əsassız iddialar irəli sürür, bununla da qeyri-konstruktiv mövqe sərgiləməkdə davam edirdi. Ancaq martın əvvəlində ATƏT-in Minsk qrupu həmsədrləri**





**bəyanatla çıxış edərək formatın dəyişdirilməsinin qəbuledilməz olduğunu açıqladılar. Hesab edirəm ki, bu bəyanat Ermənistana konkret cavab oldu və danışıqların bundan sonrakı mərhələsində mühüm əhəmiyyət kəsb edəcək”.**

V.Rəhimzadə əlavə edib ki, hər bir halda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi qətiyyətli və dəyişilməzdir. Yəni, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi təmin olunmalıdır.

# Rufiz Qonaqov: Vyana görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində yeni imkanlar yaradacaq

Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində danışıqların aparılması üçün yeni imkanlar yaradacaq. Bu danışıqların baş tutması Azərbaycan dövlətinin növbəti diplomatik uğurudur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov bildirib. O qeyd edib ki, tərəflər arasında reallaşan görüş təsdiq etdi ki, danışıqlar yalnız Azərbaycan və Ermənistan arasında aparılır və format dəyişməz qalır. Bundan əvvəllər Ermənistan tərəfi danışıqların formatının dəyişdirilməsi ilə bağlı müxtəlif iddialar irəli sürürdü. Lakin martın 9-da ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış edərək formatın dəyişdirilməsinin qəbuledilməzliyini bildirdilər. Azərbaycan tərəfi də öz növbəsində dəfələrlə formatın dəyişilməzliyini vurğulayıb. Vyana görüşünün prosesə müsbət təsir edəcəyini deyən politoloq bildirib ki, bu görüş danışıqlar prosesinə yeni bir impuls verdi. Nəticə etibarilə, Azərbaycan və Ermənistan xarici işlər nazirləri və həmsədrlər tərəfindən birgə “3+2” formatında bəyanat verildi. Bəyanatda qeyd olunur ki, görüş əsnasında danışıqlar prosesinin əsas məsələləri və substantiv məqamları barədə fikir mübadiləsi aparılıb. Sülh prosesinin irəli aparılması üçün mühitin yaradılması, münaqişənin həlli üçün danışıqlar prosesində konkret və nəticəyönümlü addımlar atılmasının vacibliyi qeyd olunub. Bəyanatda, həmçinin atəşkəslə bağlı məqamlar da qeyd edilib. Atəşkəsin davam etdirilməsi, danışıqların intensiv, substantiv əsaslarla bir-birini tamamlaması vacib şərtlərdəndir, bunlar paralel və davamlı aparılmalıdır. Danışıqlar prosesinin mahiyyətinə gəldikdə, Azərbaycan Respublikasının mövqeyi bəllidir və birmənalı xarakter daşıyır. Bizim mövqeyimizin əsasını Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri təşkil edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.



YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilir

*Dünya Bankının hesabatına əsasən ölkəmizin biznes mühitinin yaxşılaşdırılmasına görə dünya miqyasında 25-ci yerdə qərarlaşması böyük nailiyyətdir*



Azərbaycan Respublikasında azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafı məqsədilə əlverişli biznes mühitinin yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Eyni zamanda ölkəmizdə azad sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dəstək tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə gətirib çıxarıb.

## AZƏRBAYCAN BİZNESİN ASANLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ BÖYÜK NAİLİYYƏTLƏR ƏLDƏ EDİB

Onu da xüsusi qeyd etmək lazımdır ki, ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində son illər geniş islahatlar aparılır. Belə ki, sahibkarlar həm birbaşa, həm də dolayı yolla güzəşt, təşviq proqramlarından istifadə etmək imkanına malikdirlər. Onlara öz biznesini qurmaq və genişləndirmək üçün güzəştli şərtlərlə kreditlər verilir, investisiya təşviqi proqramı çərçivəsində müxtəlif layihələr reallaşdırılır. Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı çıxışında qeyd edib ki, sahibkarlara dəstək tədbirləri gələcəkdə də davam etdiriləcək: **"Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, maddi dəstək. Fermerlərə kreditlər, subsidiyalar verilir. Bu sahədə də təkmilləşmə gedəcək, texnika, gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Bu sahədə də Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına, öz fermerinə bu qədər diqqət göstərir. Əlbəttə ki, biz sahibkarlardan daha böyük nəticələr gözləyirik".**

Təsadüfi deyil ki, 2018-ci ilin sonunda Dünya Bankının növbəti "Doing Business" hesabatında 150-dən çox ölkə arasında Azərbaycanın biznesin asanlaşdırılması istiqamətində böyük nailiyyətlər əldə etdiyi qeyd olunub. Ən əsası odur ki, "Doing Business" hesabatında Azərbaycan Cənubi Qafqaz dövlətləri arasında yeganə sürətli inkişaf edən, biznes mühitinin asanlaşdırılması istiqamətində ciddi islahatlar aparan ölkə kimi təqdim edilir.

Yeri gəlmişkən, 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı İlham Əliyev iqtisadi gücümüzün müstəqil siyasət aparmağa, Azərbaycan xalqının maraqlarını müdafiə etməyə imkan verdiyini, keçən ilin uğurlu və dərin iqtisadi islahatlar ili olduğunu vurğulayaraq demişdir: **"İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəli getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir".**

## AZAD SAHİBKARLIĞIN TƏŞVİQ EDİLMƏSİ ÜÇÜN CİDDİ İSLAHATLAR REALLAŞDIRILIR

Respublikamızda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu özəl sektorun inkişafına dəstək siyasəti son 15 ildə Prezident İlham Əliyev tərəfindən də eyni ardıcıllıqla davam etdirilib. Bunun məntiqi nəticəsidir ki, ölkədə liberal iqtisadiyyata keçid prosesi uğurla yekunlaşıb, özəl sektorda istehsal imkanları əhəmiyyətli dərəcədə genişlənib. Bu dövr ərzində ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması ilə bağlı mühüm tədbirlər görülüb, sahibkarlığın inkişafına böyük dəstək göstərilib. Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə, o cümlədən sahibkarlıq fəaliyyəti göstərən hüquqi şəxslərin sayı 2 dəfə artıb.

Dünyada iqtisadi-maliyyə böhranları, digər mənfi tendensiyaların müşahidə edildiyi axırıncı 5 ildə yaranmış yeni iqtisadi şəraitdə Azərbaycan dövləti Prezident İlham Əliyevin siyasi iradəsi əsasında özəl sektora dəstək tədbirlərini daha da gücləndirib. Yeni iqtisadi şəraitdə Azərbaycan dövlət başçısının imzaladığı Fərman və sərəncamlar əsasında reallaşdırılan islahatların böyük bir qismi məhz azad sahibkarlığın inkişafının təşviq edilməsinə, özəl sektorda istehsal və ixrac imkanlarının artırılmasına hesablanıb. Sahibkarların imkanlarının genişləndirilməsi baxımından respublikada investisiyaların və ixracın səmərəli təşviq mexanizminin işə salınmasının, sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması müddətinin 2021-ci ilədək uzadılmasının, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməsinin, lisenziyaların müddətsiz müəyyən edilməsinin və digər belə tədbirlərin aktuallığı böyükdür.

Ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə hüquqi bazanın möhkəmləndirilməsi, səmərəli təşviq mexanizmlərinin işə salınması və digər siyasi dəstək tədbirləri ilə yanaşı, maddi dəstəyin də miqyası mütəmadi qaydada artırılır. İndiyə qədər investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb.

## CARİ İLDƏ 39 YENİ MÜƏSSİSƏNİN AÇILMASI GÖZLƏNİLİR

Yeni iqtisadi şəraitdə həyata keçirilən islahatlar çərçivəsində özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahibkarlar üçün yeni imkanlar açıb. Qeyd edək ki, dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilib. Yeni qaydalara əsasən, güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarların maarifləndirilməsi, sahibkarlıq fəaliyyətinin təşviqi və güzəştli kreditlərin verilməsi məqsədilə "Sahibkarların maarifləndirilməsi və maliyyə resurslarına çıxış imkanlarının artırılması"na dair bu ilin ilk işgüzar forumunu fevralın 15-də Tovuz rayonunda keçirib. Forumda Tovuz rayonunun iqtisadi potensialına uyğun olaraq kənd turizmi layihələrinin maliyyələşdirilməsi, kartofçuluq, cins heyvandarlıq və arıçılıq təsərrüfatlarının, meyvə emalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, sahibkarlara maarifləndirici materiallar təqdim olunub.

Tədbirdə bildirilib ki, təkcə ötən il müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 617,8 milyon manat olan 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 9000-dək yeni iş yerinin açılmasına imkan yaradır. Kreditlərin 64,3 faizi regionların, 35,7 faizi isə Bakının qəsəbələrinin payına düşüb. Güzəştli kreditlərin 70,3 faizi aqrar sektorun, 29,7 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib. 2018-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən 35 istehsal, emal və infrastruktur müəssisəsi fəaliyyətə başlayıb. Cari ildə isə daha 39 müəssisənin açılması gözlənilir.

## SAHİBKARLARIN SİSTEMLİ TƏŞVİQ OLUNMASI TƏDBİRLƏRİ SAHİBKARLIĞIN İNKİŞAFINA BÖYÜK TƏKAN VERİR

Sahibkarlığın inkişafının dəstəklənməsi üçün müxtəlif mexanizmlərdən istifadə olunur ki, onlardan biri də investisiya təşviqi sənədidir. Belə ki, bu vaxtadək sahibkarlara investisiya dəyəri 2,8 milyard manatdan çox olan layihələr üzrə 333 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2188 təsdiqedici sənəd verilib. Bu sənədi almış sahibkarlar çox fərqli güzəştlərdən faydalanırlar. Güzəştlərin tətbiqi imkan verir ki, sahibkarlar vergi formasında ödəniləcək vəsaitləri öz sərəncamlarında saxlasınlar.

Həmin layihələrin 41 faizi kənd təsərrüfatı, 59 faizi isə sənaye sahələrini əhatə edir. Bu layihələrin reallaşması nəticəsində 22 minədək iş yerinin açılacağı gözlənilir. Eyni zamanda, təkcə keçən il sahibkarlara investisiya dəyəri 801 milyon manat olan layihələr üzrə 107 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 1058 təsdiqedici sənəd təqdim edilib.

Onu da xatırladaq ki, investisiya mühitinin yaxşılaşdırılması fonunda sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci il yanvarın 1-dək dayandırılması da sahibkarlara müdaxiləni minimumlaşdırır. Vergi Məcəlləsindəki son dəyişikliklər isə sahibkarların çox fərqli güzəştlərdən istifadə etməsinə imkan yaradır. Belə ki, yeni formalaşan startaplar mənfəət vergisindən 3 il müddətinə azad olacaq. Sahibkarlar üçün həyata keçirilən sistemli təşviq tədbirləri sahibkarlığın inkişafına böyük təkan verir. Təkcə onu qeyd etmək yerinə düşər ki, növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında dövlət bu istiqamətə 17 milyard manat vəsait ayıracaq.

(davamı növbəti sayımızda)

**Qaşqay RAMAZANOV**

# Bolqarıstanın "Standart" qəzeti Elçin Əhmədovun 31 mart soyqırımı ilə bağlı məqaləsini yayıb

Bolqarıstanın nüfuzlu "Standart" qəzetinin saytında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun 31 mart soyqırımı ilə bağlı məqaləsi yerləşdirilib.




AZƏRTAC xəbər verir ki, məqalədə son 200 ildə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti geniş təhlil edilir. 1918-ci il 31 mart soyqırımının XX əsrdə azərbaycanlılara qarşı kütləvi soyqırımı cinayətlərinin ən qanlı mərhələsi kimi qiymətləndirilən məqalədə göstərilir ki, erməni daşnakları tərəfindən həmin ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilib. Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 azərbaycanlı amansızlıqla öldürülüb.

Bundan əlavə, bu dövrdə ermənilər tərəfindən Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 157 kənd dağıdılıb və yandırılıb, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilib. Bu dövrdə Quba qəzasında 167, Şamaxı qəzasında 110, Zəngəzur qəzasında 115, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılıb, dağıdılıb və talan edilib. 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilib, İrəvan quberniyasında 132 min azərbaycanlı qətlə yetirilib.

Məqalədə qeyd edilir ki, ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilib. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılıb, maddi-mədəniyyət nümunələri məhv edilib.

Bununla yanaşı, diqqətə çatdırılır ki, Ermənistanın bu cinayətkar siyasətini sübut edən faktlardan biri də budur ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

# "Təmizlik ayı" çərçivəsində paytaxtda ağacəkmə və təmizlik-abadlıq aksiyası keçirilib



Ölkə rəhbərliyinin yeni yaşıllıqların salınması ilə bağlı verdiyi tövsiyə və göstərişlərə uyğun olaraq paytaxtda ekoloji durumun yaxşılaşdırılması, yaşıllıqların artırılması və ağac əkilməsinin təşviqi məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və yerli icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə paytaxtın rayonlarında ağacəkmə və təmizlik-abadlıq aksiyası keçirilib. Aksiya Bakı Şəhər İcra Hakimiyyətinin elan etdiyi "Təmizlik ayı" çərçivəsində təşkil olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, qurumun, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, həmçinin Nərimanov, Yasamal, Xətai və Qaradağ rayonlarının təsərrüfat xidmətləri işçiləri, idarə, təşkilat, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən aksiyada paytaxt rayonlarının ərazisində minlərlə müxtəlifcinsli ting əkilib.

Ərazilərdə əkilən ağaclara daimi qulluq göstərilməsi üçün suvarılma məsələləri həll olunub. Həmçinin ilboyu həmin ağaclara qulluq məsələləri yerli icra qurumları tərəfindən nəzarətə alınıb.

Eyni zamanda, paytaxt rayonlarının qəsəbə və yaşayış məntəqələri ərazisində yol kənarları, açıq sahələrdə yığılan tullantılar təmizlənib, kortəbii zibilliklərin böyük bir hissəsi daşınıb.

Qeyd edək ki, ağaclar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tinglik sahələrində yetişdirilib.

# IDEA Heyvanlara Qayğı Mərkəzinin yeni baytar heyəti fəaliyyətə başlayıb

Məlum olduğu kimi, sahibsiz heyvanların sayının artması və onlara zəruri qayğının göstərilməməsi, xüsusilə küçə it və pişiklərinin vaxtında sterilizasiya edilməməsi və peyvəndlənməməsi ölkədə bir çox ekoloji, sanitar və səhiyyə problemlərinin yaranması ilə nəticələnə bilər. Bu xüsusda, artıq iki ildən çoxdur ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən yaradılmış IDEA Heyvanlara Qayğı Mərkəzi sahibsiz heyvanların rifah və sağlamlığının yaxşılaşdırılması istiqamətində çalışır.




Sterilizasiyası (axtalama və ya qısırlaşdırma) yolu ilə sahibsiz küçə heyvanlarının sayının tənzimlənməsi, onların müalicəsi və reabilitasiyası üzrə fəaliyyətin daha da gücləndirilməsi məqsədilə IDEA Heyvanlara Qayğı Mərkəzinin baytarlıq klinikasında işləmək üçün təcrübəli türkiyəli baytar həkim Seher Yousefitebaei dəvət olunub. Seher Yousefitebaei indiyə kimi Mərmərə Adalar Bələdiyyəsinin Heyvan Sağlamlığı şöbəsində baytarlıq işləri üzrə müdir vəzifəsində çalışıb, işlədiyi ərazidə sahibsiz heyvanlarla bağlı problemin hərtərəfli aradan qaldırılmasında, o cümlədən orada olan bütün küçə heyvanlarının sterilizasiya edilməsində həlledici rol oynayıb.

Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən bildirilib.

Hazırda yeni baş baytar həkiminin rəhbərliyi altında mərkəzin klinikasında bacarıqlı yerli kadrlardan ibarət yeni baytar komandası, o cümlədən bir baytar həkim, iki baytar assistenti, eləcə də Azərbaycan Aqrar Universitetinin baytarlıq fakültəsindən olan təcrübəçilər fəaliyyət göstərir. Bununla yanaşı, əvvəlki illərdə olduğu kimi, mərkəz ölkəmizə könüllü əsaslarla səfər etmiş xarici baytar həkimlərin köməyi ilə mütəmadi kütləvi sterilizasiya kampaniyaları təşkil etmək niyyətindədir.

IDEA Heyvanlara Qayğı Mərkəzi bütün heyvansevərləri və könüllüləri sahibsiz heyvanlara öz yardımını davam etdirməyə, onları pulsuz cərrahiyyə və müalicə xidmətləri, sterilizasiya və peyvəndlənmə üçün mərkəzin klinikasına gətirməyə dəvət edir.

# Azercell ilə ən sərfəli Rominq İnternet paketlərindən faydalanın!

Azercell-dən yeni Günlük Rominq İnternet paketi cəmi 3,90 AZN-a!

Azercell ölkə xaricində olan abunəçilərinin ən sərfəli rominq xidmətlərindən faydalanmaları üçün yeni Günlük Rominq İnternet paketini təklif edir. 29 mart tarixindən etibarən Azercell abunəçiləri 100 MB həcmində təqdim olunan Günlük Rominq İnternet paketindən cəmi 3,90 AZN ödəməklə yararlana bilərlər. Azercell-in Rominq İnternet paketləri abunəçilərə səfər və səyahətlər zamanı yarana biləcək gözlənilməz internet xərclərinin qarşısını almaqda yardımçı olur.

Qeyd edək ki, Azercell abunəçilərinə rominqdə internet xidmətindən faydalanmaq üçün daha 2 paket təklif edir: 19.90 AZN dəyərində 1 GB və 9.90 AZN dəyərində 400 MB həcmində internet paketləri.

Bu paketlər dünyanın ən çox ziyarət edilən 52 ölkəsində fəaliyyət göstərən 70-dən çox operatorun şəbəkəsində qüvvədədir və siyahı daim yenilənir. Əlavə olaraq, Türkiyə, Gürcüstan, ABŞ, Qətər, Belarus, Finlandiya, Özbəkistan, Yeni Zelandiya, BƏƏ və Çin kimi populyar istiqamətlərdə rominq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, Azercell abunəçiləri prioritet operatoru seçmək zərurətinə ehtiyac qalmadan istənilən şəbəkədə internet xidmətindən yararlana bilər.




Azercell ilə rominqdə onlayn olmaq fürsətini qaçırmayın!

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU